“Təsdiq edilmişdir”

“Bank of Baku” Açıq Səhmdar

Cəmiyyətinin

Müşahidə Şurasının sədri

E.H.İsayev_____

“Bank of Baku” ASC tərəfindən “21” sentyabr 2023-cü il tarixində təsdiq edilmişdir.

“BANK OF BAKU” ASC-NİN MÜŞTƏRİLƏRİNƏ KREDİTLƏŞMƏ VƏ XİDMƏT ŞƏRTLƏRİ
(istehlak kreditləşməsi üzrə)

Preambula

“Bank of Baku” ASC-nin müştərilərinə kreditləşmə və xidmət şərtləri (bundan sonra “Xidmət şərtləri” və ya “Şərtlər” adlandırılacaq) “Bank of Baku” ASC-nin müştərilərlə münasibət sahəsində olan çoxillik təcrübəsi nəticəsində formalaşmış, istisnasız olaraq hər bir müştərisinə münasibətdə tətbiq üçün nəzərdə tutulan elə şərtlərdir ki, Bank tərəfindən təqdim edilən bütün məhsullar üzrə ümumi şərtləri, tərəflərin hüquq və vəzifələrini, habelə müqavilə münasibətlərinin ümumi şərtlərini müəyyən edir və tərəflər arasında gələcəkdə bağlanacaq əqdlərin ayrılmaz tərkib hissəsi olmaqla onların əsasını təşkil edir. Şərtlərdə həm bütün gələcək əqdlər (kredit sazişləri, razılaşmalar və s.) üçün ümumi, həmçinin ayrı-ayrı məhsullar üzrə xüsusi şərtlər müəyyən edilir.

ÜMUMİ HİSSƏ

I. Əsas anlayışlar

1.1. İstifadə olunan əsas anlayışlar aşağıdakılardır:

1.1.1. **“Kredit müqaviləsi” və ya “Müqavilə”** – kreditləşdirmə ilə əlaqədar bağlanılan yazılı əqddir. Kredit saziş(lər)i və Xidmət şərtləri, ödəniş cədvəli, o cümlədən digər əlavələr (qoşmalar) kredit müqaviləsinin ayrılmaz tərkib hissələrini təşkil etməklə kredit müqaviləsi məfhumunu əmələ gətirir. Kredit müqaviləsi anlayışı şərtidir və Müqavilədə tərəflər üçün məcburi olan nəinki kredit, həmçinin təminat şərtləri öz əksini tapır;

1.1.2. **“Kredit saziş(lər)i”** – kredit məhsulunun növünü, kredit müqaviləsinin nömrəsini, tərəfləri və onların rekvizitlərini, kreditin məbləği, müddəti, faizləri, komisyon haqları, verilmə və qaytarılma şərtlərini, gecikdirilmə faizlərini, cərimə məbləğlərini, bank hesabı rekvizitlərini, müəyyən hallarda həmçinin təminat şərtlərini, habelə digər şərtləri nəzərdə tutan, Bank, Müştəri və müəyyən hallarda digər tərəflər arasında Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalanan yazılı əqddir (sənəddir);

1.1.3. **“Saziş(lər)”** – kredit sazişləri istisna olmaqla, “Dostlar klubu” və digər məhsullar üzrə məhsulun növünü, müqavilənin nömrəsini, tərəfləri və onların rekvizitlərini, məbləği, müddəti, bank hesabı rekvizitlərini, habelə digər şərtləri nəzərdə tutan, Bank və Müştəri arasında Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalanan yazılı əqddir (sənəddir);

1.1.4. **“Xidmət şərtləri” və ya “Şərtlər”** – Bankın müştərilərlə münasibət sahəsində formalaşmış, istisnasız olaraq həmin sahənin hər bir müştərisinə münasibətdə tətbiq üçün nəzərdə tutulan elə şərtlərdir ki, bu normalardan fərqlənən, onları tamamlayan və konkretləşdirən müqavilə şərtləri onların vasitəsi ilə müəyyənləşdirilir. Kredit sazişində (və digər sazişlərdə) bu Şərtlərə istinad və Müştərinin bu Şərtlərlə razı olduğu barədə mütləq qaydada qeyd olmalıdır. Tərəflər Kredit sazişində (və digər sazişlərdə) bu Şərtlərdən fərqlənən, onları tamamlayan və konkretləşdirən, ayrı-ayrı şərtlərin tətbiqini istisna edən şərtlər barədə razılığa gələ bilərlər. Tərəflərin Kredit sazişi (və digər sazişlər) ilə bilavasitə razılaşdırdıqları şərtlərə bu Xidmət şərtlərinə nisbətən üstünlük verilir;

1.1.5. **“Bank”** – “Bank of Baku” Açıq Səhmdar Cəmiyyətidir;

1.1.6. **“Müştəri”** – kredit müqaviləsi üzrə borclu olan şəxsdir;

1.1.7. **“Girov qoyan”** – girov predmetini girov qoyan şəxsdir (Müştəri Girov qoyandırsa, Müqavilədə Girov qoyana aid müddəalar Müştəriyə şamil olunur);
1.1.8. **“Zamin”** – Kredit müqaviləsi üzrə Bank qarşısında Müştəri ilə eyni həcmdə məsuliyyət daşıyan şəxsdir;
1.1.9. **“Birgə borcalan”** – Bank qarşısında Müştəri ilə birlikdə borcalanın öhdəliklərinin tam icrasına cavabdeh olan şəxsdir.
1.1.10. **“Təminatçı(lar)”** – birlikdə Zamin və Girov qoyandır;
1.1.11. **“Tərəflər”** – birlikdə Müştəri, Bank və əgər varsa, Təminatçı(lar)dır (Zamin, Girov qoyan və s.);
1.1.12. **“Kredit”** – bağlanmış müqaviləyə əsasən qaytarılmaq, müəyyən müddətə və faizlər və/və ya Müqavilədə göstərilən digər ödənişlər ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir;
1.1.13. **“Kredit məbləği”** – Bankın Müştəriyə verməyi öhdəsinə götürdüyü, Müştərinin isə qaytarmalı olduğu pul vəsaitidir;
1.1.14. **“Tranş”** – Müştəriyə ayrılmış kredit limitinin/xəttinin hər hansı hissəsidir;
1.1.15. **“Kredit müddəti”** – Bank tərəfindən verilmiş kreditin qaytarılmalı olduğu zaman kəsiyidir. Kredit müddətinin hesablanması bu Şərtlər və kredit sazişi ilə müəyyən edilən qaydada aparılır;
1.1.16. **“Kreditin verilmə tarixi”** – kreditin tam və ya qismən Müştərinin cari hesabına köçürüldüyü təqvim tarixidir;
1.1.17. **“Faizlər”** – kreditdən istifadəyə görə Müştəri tərəfindən Banka müqavilə ilə müəyyənləşdirilən şərtlərlə hesablanan və ödənilməli olan haqdır. Faizlərin miqdarı kredit sazişi ilə müəyyən olunur;
1.1.18. **“Komisyon haqq”** – kreditin rəsmiləşdirilməsinə, nağdlaşdırmaya və/və ya digər bank xidmətlərinə görə Müştəri tərəfindən Banka müqavilə ilə müəyyənləşdirilən şərtlərlə ödənilməli olan haqdır. Kreditin rəsmiləşdirilməsinə və nağdlaşdırmaya görə komisyon haqlar bu Şərtlərdə və kredit sazişlərində göstərilə bilər;
1.1.19. **“Cərimə”** – Müqavilə ilə müəyyənləşdirilən, öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda Müştərinin Banka ödəməli olduğu pul məbləğidir. Bu Müqavilə üzrə cərimə Bank tərəfindən qanunvericiliyin tələbləri nəzərə alınmaqla tətbiq edilə bilər. Müqavilə üzrə ödəniş öhdəliklərinin gecikdirilməsinə görə Bank tərəfindən cərimə hesablandığı halda gecikdirilmə faizləri tətbiq edilmir;
1.1.20. **“Gecikdirilmə faizləri”** – kredit üzrə ödənişlərin gecikdirilməsinə görə, ödənilməmiş əsas borc məbləğinə 180 (bir yüz səksən) gün müddətində, Müqavilədə nəzərdə tutulan illik faiz dərəcəsinə beş faiz bəndi əlavə edilməklə hesablanan, Müştərinin Banka ödəməli olduğu pul məbləğidir;
1.1.21. **“Nağd pul krediti”** – Müqavilə ilə müəyyən edilən şərtlər yerinə yetirildikdən və rəsmiləşdirmələr başa çatdıqdan sonra Müştərinin hər hansı sifarişi olmadan tam məbləğdə onun cari (kart) hesabına köçürülən pul vəsaitidir. Nağd pul kreditlərinə həmçinin avtomobil və ya hər hansı məişət avadanlığının əldə edilməsi məqsədi ilə ayrılan kreditlər də aid edilir;
1.1.22. **“Kredit xətti”** – Bank tərəfindən Müştəriyə açılan və kreditin məbləği və müddəti çərçivəsində istənilən vaxt sonuncunun sifarişi (yazılı tapşırığı) əsasında birdəfəlik və ya hissə-hissə götürülən kreditdir. Kredit xətti bərpa olunan və ya bərpa olunmayan növlərində ola bilər;
1.1.23. **“Kredit məhsulları”** – şərtləri Bank tərəfindən müəyyən edilən, kreditlərin verilməsi, istifadəsi, geri ödənilməsi və kredit münasibətlərinin xitamı qaydalarını müəyyən edən bank məhsuludur;
1.1.24. **“Ödəniş kartı”** (bundan sonra - kart) - nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş alətidir;
1.1.25. **“Ödəniş cədvəli”** – kreditin və faizlərin kredit müddəti hüdudlarında ödənilmə qrafikini (qaydasını) və digər məlumatları müəyyən edən sənəddir;
1.1.26. **“AMB”** – Azərbaycan Respublikasının Mərkəzi Bankı;
1.1.27. **“Əsas öhdəlik”** – Kredit müqaviləsi üzrə yaranan və icrası girov və/və ya zaminlik ilə təmin edilən borc və digər öhdəliklərdir;
1.1.28. **“Girov”** – öhdəliyin icrasının təmin edilməsi üsulu olaraq, daşınar əşyalara (rəsmi reyestrdə üzərində mülkiyyət hüquqları qeydə alınan əşyalar istisna olmaqla) əşya hüquqlarının məhdudlaşdırılmasıdır;
1.1.29. **“İpoteka”** – öhdəliyin icrasının təmin edilməsi üsulu olaraq, rəsmi reyestrdə üzərində mülkiyyət hüquqları qeydə alınan daşınar əşyalara əşya hüquqlarının məhdudlaşdırılmasıdır;
1.1.30. **“Zaminlik”** – Zaminin Bank qarşısında Müştəri ilə birgə məsuliyyətini ehtiva edən, əsas öhdəliyin icrasının təmini üsuludur;
1.1.31. **“Girov (ipoteka) predmeti”** – Girov qoyanın girov müqaviləsi üzrə girovla yüklü edilən daşınar əşyaları (ipoteka obyekti olan daşınar əşyalara münasibətdə “İpoteka predmeti” adlandırılacaq) və tələbləridir;
1.1.32. **“Tələb hüququ”** – Bankın Müqavilə üzrə digər tərəflərə qarşı hüququdur;
1.1.33. **“Müştəri kodu”** – Müştərini Bankın digər müştərilərindən fərqləndirən unikal koddur;
1.1.34. **“Eyniləşdirmə nömrəsi”** – bəzi məhsullar üzrə məlumat mübadiləsi zamanı istifadə olunan, Müştəriyə məxsus unikal rəqəm kombinasiyasıdır;
1.1.35. **“Əqd(lər)”** – Bank tərəfindən təklif edilən məhsullar çərçivəsində kreditlərin əldə edilməsi üzrə tərəflər arasında Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalanan və ya Bank tərəfindən internet və

digər vasitələrlə təqdim edilən, Müştəri tərəfindən isə təsdiqləmə yolu ilə qəbul edilən, həmçinin tərəflər arasında müəyyən edilmiş prosedurlar çərçivəsində SMS vasitəsilə təsdiq edilən razılaşmalardır.
1.1.36. **"SMS"** – (ing. *Short Message Service* – qısa mesaj xidməti) – qısa mətnli məlumatların göndərilməsi və qəbul edilməsi imkanı verən texnologiyadır;
1.1.37. **"Məhsullar"** – Bank tərəfindən həyata keçirilən fəaliyyət növlərinin təqdimetmə üsuludur;
1.1.38. **"Sifariş"** – Müştərinin internet, SMS və ya digər vasitələrlə Bankın təklif etdiyi məhsullardan yararlanmaq niyyətini bildirən müraciətidir;
1.1.39. **"İmzanın formaları"** – şəxsi imza, mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə tətbiq olunan imzanın faksimilesi, elektron imza və ya şəxsi imzanın başqa analoqu, o cümlədən şəxsi imzanın normativ və normativ xarakterli aktlarla müəyyən olunan digər formalarıdır;
1.1.40. **"Gücləndirilmiş müştəri autentifikasiyası" –** autentifikasiya məlumatlarının məxfiliyini qorumaq üçün hazırlanmış və birinin pozulması ilə digərlərinin etibarlılığını istisna etməyən, yalnız istifadəçinin bildiyi, istifadəçiyə məxsus olan və istifadəçinin sahib olduğu elementlərdən iki və ya daha çoxunun istifadəsinə əsaslanan autentifikasiya;
1.1.41. **"Davamlı daşıyıcı" –** məlumatın onun məqsədlərinə uyğun müddət ərzində saxlanmasına imkan verən və saxlanılan məlumatın dəyişikliksiz əks etdirilməsi mümkün olan istənilən vasitədir;
1.1.42. **"Cashback" (bundan sonra "kəşbək")** – ödəniş kartı ilə aparılan bəzi bank əməliyyatlarına görə və/və ya Bank tərəfindən keçirilən layihə və kampaniyalar çərçivəsində (o cümlədən, ayrı-ayrı bank məhsulları üzrə) Bankın müəyyən etdiyi şərtlərlə və qaydada hesablanıb Müştəriyə ödənilən məbləğdir.
1.1.43. **"Gücləndirilmiş elektron imza"** – imza sahibinin nəzarəti altında olan elektron imza vasitələri ilə yaradılan və yalnız imza sahibinə məxsus olmaqla onu identikləşdirən, əlaqəli olduğu məlumat bildirişinin bütövlüyünü, dəyişməzliyini, təhrif olunmadığını və saxtalaşdırılmadığını müəyyən etməyə imkan verən elektron imza;
1.2. Şərtlərdə izahı verilməyən anlayışlar Azərbaycan Respublikasının qanunvericiliyi və bank tənzimləyicisinin aktları ilə müəyyən olunan mənalarda anlaşılır.

II. Kredit müqaviləsinin predmeti

2.1. Müqaviləyə əsasən Bank Müştəriyə sahibkarlıq və peşə fəaliyyəti ilə bağlı olmayan məqsədlər üçün kredit(lər) verməyi və/və ya kredit xətt(lər)i açmağı, Müştəri Müqavilə ilə müəyyən olunan şərtlərlə və qaydada kredit(lər)dən istifadə etməyi və onu qaytarmağı, habelə kredit(lər)dən istifadəyə görə Banka faizlər (komisyon haqlar və/və ya Müqavilədə nəzərdə tutulan digər ödənişlər) ödəməyi, Girov qoyan və/və ya Zamin isə Müqavilə ilə müəyyən olunan şərtlərlə və qaydada öhdəliyin icrasını təmin etməyi öhdələrinə götürürlər.
2.2. Müqavilə çərçivəsində təqdim edilən hər bir kredit məhsulu üzrə münasibətlərin predmeti Xidmət şərtlərinin 1-ci bölməsinin xüsusi hissəsində və müvafiq Kredit sazişində qeyd edilir.

III. Kreditin istifadə edilməsi, ödənilməsi və uçotu

3.1. Nağd pul krediti, Müqavilə ilə müəyyən olunan şərtlər Müştəri tərəfindən icra edildikdən sonra Bank tərəfindən Müştərinin müvafiq Kredit sazişi ilə müəyyənləşdirilən cari hesabına köçürmə yolu ilə verilir.
3.2. Kreditin verilmə tarixi və müddətinin axımı kredit məbləği Müştərinin Kredit sazişində göstərilən hesabına köçürüldüyü gündən başlanılır.
3.3. Müqavilə üzrə verilmiş nağd pul krediti və ona hesablanmış faizlər ödəniş cədvəlinə əsasən Müştəri tərəfindən Banka nağd və ya köçürmə yolu ilə kredit müddətində tamamən qaytarılır. Xidmət şərtlərinin xüsusi hissəsi və Kredit sazişlərində göstərilən hallarda ödəniş cədvəli həmçinin digər kredit növləri üzrə də tərtib edilə bilər.
3.4. Faizlər kreditin verilmə tarixindən etibarən kredit tam məbləğdə faktiki qaytarılan günədək Kredit sazişi ilə müəyyənləşdirilən, ödənilməmiş əsas borc qalığı məbləğinə ildə 360 (üç yüz altmış), ayda 30 (otuz) təqvim günü götürülməklə və kreditin verildiyi faktiki günlərin (kreditin verildiyi gün daxil, qaytarıldığı gün isə xaric olmaqla) sayına vurulmaqla hesablanır.
3.5. Bankın əməliyyat saatları bazar ertəsi – şənbə günləri saat 09:00-dan 17:00-dəkdir. Bankın əməliyyat saatlarında edilən dəyişikliklər barəsində məlumat www.bankofbaku.com internet saytında yerləşdirilir, həmçinin bu barədə digər kütləvi məlumatlandırma vasitələri ilə məlumat verilir. Bankın Müştəridən qəbul etdiyi hər hansı ödənişin borc üzrə sonrakı günlərin birində qəbul edilmiş ödəniş kimi hesab edilməsi yolverilməzdir, bu şərtlə ki, ödəniş əməliyyat gününün sonuna kimi həyata keçirilmiş olsun. Bankın əməliyyat saatlarından kənar, Bankın ödəniş terminalları və ya digər ödəniş vasitələri ilə aparılmış ödənişlər növbəti ilk iş gününün əməliyyat saatlarında həyata keçirilmiş ödəniş kimi hesab edilə bilər.
3.6. Kart vasitəsi ilə təqdim edilən kreditin istifadə edilməsi zamanı aşağıdakı şərtlər tətbiq edilir:
3.6.1. Müştəri kreditdən istifadə etmək niyyətini Bank tərəfindən verilmiş kartı müvafiq POS-terminallar (bankomatlar) vasitəsi ilə istifadə edərək PİN kodunu yığmaqla bildirir.
3.6.2. Müqavilə ilə müəyyən olunan şərtlər təmin edildiyi halda, Bankın Müştəri qarşısındakı öhdəliyi Müştəri kredit xəttindən hər istifadə niyyətini Banka bildirdikdən, təhlil aparıldıqdan və Müştəri Bank tərəfindən müsbət qiymətləndirildikdən sonra yaranır.

3.6.3. Müştəri son istifadədən sonra 7 (yeddi) təqvim günü ərzində kartdan yenidən istifadə etməzsə, kartın təhlükəsizliyini təmin etmək məqsədilə kart Bank tərəfindən bloklaşdırıla bilər. Bloklaşdırılan kart Müştərinin müraciəti əsasında Bank tərəfindən yenidən aktivləşdirilə bilər.

3.7. Bankın ödəniş terminalları və ya digər ödəniş vasitələri ilə ödəniş zamanı kreditin valyutasından fərqli valyutada ödəniş edilərkən, məbləğin konvertasiyası Bankın xidmət tarifləri və şərtləri ilə müəyyən edilən məzənnə əsasında aparılır. Bu zaman Bank tərəfindən müvafiq valyuta mübadiləsi əməliyyatının icrasına görə Müştəridən xidmət haqqı tutula bilər. Tətbiq olunacaq məzənnə və nəzərdə tutulduqda xidmət haqları barədə ətraflı məlumat www.bankofbaku.com internet saytında göstərilir.

3.8. Kredit üzrə Müştəri tərəfindən ödənilən məbləğ, əgər bu Şərtlərin xüsusi hissəsində hər hansı kredit məhsulu üzrə fərqli qayda müəyyən edilməmişdirsə, ilk növbədə Banka dəyən zərərin, sonra hesablanmış gecikdirilmə faizlərinin, cərimənin, komisyon haqların, kredit üzrə hesablanmış faizlərin, ən nəhayət, kreditin ödənilməsinə yönəldilir. Bank bu bənddə göstərilən, ödənilən məbləğin yönəldilməsi ardıcıllığından fərqli ardıcıllıq müəyyən edə bilər.

3.9. Kredit müqaviləsinin məsafədən bağlanılmasına və ya kredit limitinin artırılması ilə bağlı müqaviləyə məsafədən dəyişiklik edilməsinə dair Müştəri tərəfindən məhdudiyyətin tətbiq edilməsinə baxmayaraq, kredit verildiyi və ya kredit limiti artırıldığı halda, Müştəri verilmiş (artırılmış) kredit üzrə öhdəlikdən azad edilir.

3.10. Hər bir kredit məhsulunun xüsusiyyətlərindən asılı olaraq bu Şərtlərin xüsusi hissəsində kreditin istifadə edilməsi və ödənilməsi ilə bağlı daha ətraflı və bu fəsildə göstərilənlərdən fərqli qaydalar müəyyən edilə bilər.

IV. Bank hesabının açılması və fəaliyyəti rejimi

4.1. Bank kreditin istifadə edilməsi və ödənilməsi üçün Müştərinin adına, rekvizitləri Kredit sazişində göstərilən cari hesabı Azərbaycan Respublikasının qanunvericiliyi, bank tənzimləyicisinin aktları və bankdaxili müvafiq korporativ aktlar ilə müəyyən olunan qaydada açır. Müqavilədə ayrı şərt müəyyən edilmədikdə, hesab qeyri-müəyyən müddətə açılır. Bank tərəfindən ayrı qayda nəzərdə tutulmamışdırsa, Müştərinin hesabında olan pul vəsaitinə (əmanətlər istisna olmaqla) onun xeyrinə faizlər hesablanmır.

4.2. Hesab üzrə əməliyyatlara Bankın cari xidmət tarifləri və şərtləri tətbiq edilir.

4.3. Bank hesabından onda olan pul vəsaiti çərçivəsində istifadə etmək olar. Həmin çərçivədən kənar istifadə kreditləşmə (texniki overdraft) hesab olunur və Müştəri Bankın ilk tələbi ilə müvafiq vəsaiti və texniki overdraft üzrə Bankın tarifi ilə hesablanmış faizi dərhal Banka qaytarmalıdır.

4.4. Müştəri Bank tərəfindən müəyyən edilən qaydada qeydiyyatdan keçməklə kommunal və digər ödənişlərinin/öhdəliklərinin aylıq olaraq hesab(lar)ında, o cümlədən digər banklardakı hesab(lar)ında olan vəsaitlər hesabına avtomatik ödənilməsinə/icrasına razılıq verə bilər. Ödənişlərin edilməsi üzrə məbləğ hədləri, ödəniş növləri, onların edilmə ardıcıllığı, hesabların rekvizitləri və zəruri olan bütün digər məsələlər Bankla Müştəri arasında kağız daşıyıcıda, internet bankçılıq, SMS və/və ya digər vasitələrlə razılaşdırıla bilər. Müştərinin qeydiyyatdan keçməsi Banka müvafiq hesab(lar)dan hər ay akseptsiz qaydada razılaşdırılmış məbləğlərin silinməsi ilə bağlı hüquq vermiş olur. Hər bir halda Bank aşağıdakı hallar üzrə ödənişlərin icra edilməməsinə görə cavabheh deyil:

4.4.1. Faktura üzrə ödəniş Müştərinin faktiki borcundan çox olduqda;

4.4.2. Müştərinin hesab(lar)ında kifayət qədər vəsait olmadıqda.

4.5. Müqavilə üzrə açılmış bank hesabları aşağıdakı hallarda Bank tərəfindən birtərəfli qaydada bağlana bilər:

- Müştərinin bank hesab(lar)ından qeyri-leqal məqsədlər üçün istifadə etməsi müəyyən olunduqda;
- Müştəri tərəfindən 1 (bir) il ərzində bank hesabı üzrə əməliyyatlar aparılmadıqda;
- Müqavilə üzrə kredit öhdəlikləri və Bankın digər pul tələbləri tam icra edildikdə;
- Bankdaxili korporativ aktlarla müəyyən olunan hallarda.

4.6. Şərtlərin 4.5-ci bəndində göstərilən hallarda Müqavilənin müvafiq şərtlərinin ləğv edilməsi qaydasını Bank öz mülahizəsi ilə müəyyən edir. 4.5-ci bənddə qeyd olunan hallar Bankın hüququnu təşkil edir.

4.7. Bank tərəfindən Müştəriyə məxsus hesaba əsassız olaraq və ya səhvən daxil edilmiş pul vəsaitini, habelə müvafiq təsdiqedici sənədlər təqdim edildiyi halda müştərinin hesabından silinməli olan, lakin səhvən və ya əsassız olaraq az silinmiş pul vəsaitini, təqdim edilmiş təsdiqedici sənədlərə müvafiq olaraq, Bank Müştərinin sərəncamı olmadan silir.

4.8. Müqavilənin müvafiq Sazişi üzrə tərəflər arasında münasibətlərin bitməsi Müştərinin bank hesab(lar)ının bağlanması üçün əsasdır. Bu halda Müştərinin hesabında olan, Bank və digər şəxslər qarşısında hər cür öhdəlikdən azad statuslu pul vəsaitinin qalığı nağd qaydada və ya köçürmə yolu ilə, Müştəri tərəfindən Bankın xidmət tarifləri və şərtlərinə əsasən xidmət haqqı ödənilməklə (tələb olunduqda), Müştəriyə qaytarılır və ya onun müvafiq yazılı ərizəsinə əsasən ən geci 7 (yeddi) gün ərzində başqa hesaba köçürülür. Həmin vəsait Müştəri tərəfindən geri alınmadıqda və ya vəsaitin köçürülməli olduğu yeni hesab Banka bildirilmədikdə, həmin vəsait Bank tərəfindən müvafiq hesaba köçürülür.

V. Kartın verilməsi və istifadəsi

5.1. Kart hesabından istifadə üçün, Bank Müştəriyə həmin hesab üzrə kart olan zərfi təqdim edir. ŞEN (şəxsi eyniləşdirmə nömrəsi) isə Müştərinin seçimindən asılı olaraq, ona kart ilə birgə xüsusi zərfdə təqdim olunur və ya kart təqdim edildikdən sonra elektron və ya avtomatlaşdırılmış vasitələrlə «Müştəri»nin özü tərəfindən müəyyən edilir.

5.2. Müştəri "www.bankofbaku.com" və "www.bolkart.az" internet saytlarında yerləşdirilən kartdan istifadə və təhlükəsizlik qaydaları haqqında məlumatlarla tanış olur və bu qaydalara uyğun kartdan istifadənin həyata keçirilməsinə görə tam məsuliyyət daşıyır.

5.3. Kredit xətlərindən istifadə müddəti, əgər hər hansı məhsul üzrə ayrı qayda müəyyən edilməmişdirsə, kartdan istifadə müddəti ilə (kartın üzərində göstərilir) məhdudlaşır və kartdan istifadə müddətinin artırılması, bu Şərtlərin xüsusi hissəsində hər bir məhsul üzrə fərqli müəyyən edilə bilər. İstifadə müddətində kart Bankın mülkiyyəti sayılır və istifadə müddətindən sonra Bank kartı geri tələb edə bilər.

5.4. Kartlarla, əgər hər hansı məhsul üzrə ayrı qayda müəyyən edilməmişdirsə, bankomat və POS-terminallar vasitəsilə nağd pul vəsaitini hesabdan məxaric etmək və nağdsız hesablaşmalar aparmaq mümkündür.

5.5. Müştəri Bankın bankomat və POS-terminalları vasitəsilə nağd pul vəsaitini məxaric etdiyi və digər formada nağdsız hesablaşmalar apardığı zaman kart hesabının valyutasından fərqli valyutada vəsait əldə edərsə, məbləğin konvertasiyası Bankın xidmət tarifləri və şərtləri ilə müəyyən edilən məzənnə əsasında aparılır. Bu zaman Bank tərəfindən müvafiq valyuta mübadiləsi əməliyyatının icrasına görə Müştəridən xidmət haqqı tutula bilər. Tətbiq olunacaq məzənnə və nəzərdə tutulduqda xidmət haqları barədə ətraflı məlumat www.bankofbaku.com və/və ya www.bolkart.az internet sayt(lar)ında göstərilir.

5.6. Müştəriyə təqdim edilən kartlarda yeni texnoloji və ya digər xüsusiyyətlər (yeni funksiyalar) tətbiq edilə və ya Müştəriyə yeni funksiyalı kartlar təqdim edilə bilər. Müştəri həmin funksiyaları əldə etmək üçün Bankın müəyyən etdiyi prosedurları icra etməklə (və ya funksiyalardan istifadə etməklə) onlarla razı olduğunu, onların şərtlərini anladığını və bununla bağlı öhdəlik daşıdığını təsdiq edir. Tətbiq ediləcək yeni funksiyalar üzrə Bankın tarifləri və şərtləri tətbiq edilir. Həmin funksiyalar barədə ətraflı məlumat www.bankofbaku.com internet saytında göstərilə və ya Müştəriyə digər formada çatdırıla bilər.

5.7. Şərtlərin 5.6-cı bəndində qeyd edilən yeni funksiyaların şərtləri Bankla Müştəri arasında internet bankçılıq, SMS və/və ya digər vasitələrlə razılaşdırıla bilər.

5.8. Kart və kart hesabı üzrə əməliyyatlara Bankın cari xidmət tarifləri və şərtləri tətbiq edilir.

5.9. Müştərinin ərizəsi (sifarişi) əsasında ona əlavə kart(lar) verilə bilər. Bank Müştərinin müvafiq sifarişini aldıqdan sonra onun icrasının mümkünlüyünü, özünün texnoloji imkanları və daxili korporativ aktları əsasında müəyyənləşdirir və sifarişin icrası mümkün olduqda, Müştərinin müraciətini təmin edir.

5.10. Kartdan istifadə müddəti ərzində ardıcıl olaraq 12 (on iki) ay müddətində kart vasitəsi ilə heç bir əməliyyat aparılmadıqda, Bank öz mülahizəsinə əsasən kredit xəttini bloklaşdıra və/və ya kartı ləğv edə bilər. Müştərinin yazılı və/və ya Bank tərəfindən nəzərdə tutulduqda elektron müraciəti əsasında Bankın cari xidmət tarifləri və şərtləri ilə müəyyən olunan xidmət haqqı ödənildikdən və nəzərdə tutulan rəsmiləşdirmələr həyata keçirildikdən sonra kredit xəttindən istifadə hüququ bərpa edilə və/və ya yeni kart təqdim edilə bilər. Kart itirildikdə, məhv olduqda və ya yararsız hala düşdükdə, habelə kartın ŞEN kodu 3 (üç) dəfə düzgün yığılmadıqda, Müştərinin yazılı və/və ya Bank tərəfindən nəzərdə tutulduqda elektron müraciəti əsasında, bankdaxili korporativ aktlarla müəyyən edilmiş xidmət haqqı ödənilməklə yeni kart verilə və ya avtomatik surətdə bloklaşdırılmış kart aktivləşdirilə bilər.

5.11. Müştərinin Banka müraciəti əsasında ödəniş kartı Bank tərəfindən zəruri təhlükəsizlik tədbirlərinin (məsələn, kartın sonradan aktivləşdirilməsi və s.) təmin edilməsi şərti ilə, Müştərinin müraciətində qeyd etdiyi ünvanına çatdırıla bilər.

5.12. Bəzi növ kartların istifadəçilərinə Bank tərəfindən əlavə imtiyaz hüququnu verən kartlar (məsələn, "Priority Pass və s.) təqdim edilə bilər. Qeyd edilən kartların sahibləri həmin kartlar üçün nəzərdə tutulmuş müvafiq imtiyazlar və üstünlüklərdən istifadə edə bilər. Bəzi imtiyaz və üstünlüklərdən istifadə üzrə Müştəri tərəfindən ödənişlərin edilməsi nəzərdə tutula bilər ki, Bank həmin vəsaitləri akseptsiz qaydada Müştərinin müvafiq kart hesabından (imtiyaz hüququ verən kartın verilməsinə əsas olan müvafiq kartın kart hesabından) silə bilər və Müştəri Kredit sazişini/Sazişi Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalamaqla, həmin əməliyyatın icrasına əvvəlcədən razılığını ifadə edir. Müvafiq silinmələr barədə Bank tərəfindən Müştəriyə SMS-lə, mobil tətbiq üzərindən və/və ya digər vasitələrlə məlumat verilə bilər.

5.13. Müştərinin Bank qarşısında olan kredit öhdəlikləri vaxtında və lazımınca icra edilmədikdə, habelə Müştərinin kredit öhdəliklərinin ümumi həcmi Bank qarşısında olan öhdəliklərinin icrası üçün təhlükə yaradacaq dərəcədə artdıqda və ya kreditlərdən hər hansı birinin ümidsiz kreditə çevrilməsi ilə bağlı Bankın başqa ehtimalları yarandıqda, Bank Müştəriyə ayrılmış kredit xətti məbləğindən istifadəni tam və ya qismən məhdudlaşdıra, habelə bununla əlaqədar

olaraq, Müştəriyə verilmiş kartdan istifadənin məhdudlaşdırılması ilə bağlı digər tədbirlər görə bilər. Həmin məhdudlaşdırmanın müddəti və məbləği Bank tərəfindən müəyyən edilir.

5.14. Əgər Bank tərəfindən ayrı qayda müəyyən edilməmişdirsə, Müştərinin istənilən kredit müqaviləsi üzrə Bank qarşısında borc öhdəlikləri vaxtında icra edilmədikdə və gecikmə müddəti 5 – 34 gün aralığında olduqda, Müştərinin kart(lar)dan istifadə imkanı onun tərəfindən gecikdirilən ödəniş icra edilənədək dayandırıla və ya məhdudlaşdırıla bilər. Aşağıda qeyd edilən hallarda isə Müştərinin kart(lar)dan istifadə imkanı birdəfəlik dayandırıla və ya məhdudlaşdırıla bilər:

a) Müştərinin istənilən kredit müqaviləsi üzrə Bank qarşısındakı borc öhdəlikləri ilə bağlı gecikmə müddəti 35 gün və daha çox olduqda;

b) Müştərinin Bank qarşısında borc öhdəliyinin mövcud olduğu son 18 ayda hər hansı bir kredit müqaviləsi üzrə gecikmə günü 5 dəfə 5 – 34 gün aralığında olduqda.

Bu bənddə göstərilən müddətlərin dəyişdirilməsi qaydası və tətbiq ediləcək qaydalar barədə məlumat Bankın cari xidmət tarifləri və şərtlərində, www.bolkart.az internet saytında göstərilir. Həmin məlumatlar Müştəriyə digər məlumat daşıyıcılarında da təqdim edilə bilər.

VI. Təminat

6.1. Müştərinin Bank qarşısında olan öhdəliklərinin təmin edilməsi üçün Müştəri predmeti, qiyməti və rekvizitləri Kredit saziş(lər)ində göstərilən Girov predmetini Bankın xeyrinə girovla yüklü edir.

6.2. Kredit sazişində kredit xəttinin məbləği, faiz dərəcəsi, istifadə müddəti və digər şərtləri qeyd edilir. Kredit xəttinin məbləğinin artırılması Müştərinin Banka müraciəti əsasında həyata keçirilə bilər. Hər bir konkret hal üzrə məbləğin artırılması ilə bağlı məsələyə baxılarkən, Müqavilə üzrə mövcud təminatın və/və ya Müştərinin təqdim etdiyi əlavə təminatın dəyəri, Müştərinin kredit öhdəliklərini lazımınca icra etməsi, müsbət ödəmə tarixçəsinə malik olması, kredit xəttindən istifadə edilmə intensivliyi və digər bu kimi əsaslar nəzərə alınaraq, Bank tərəfindən qərar qəbul edilir. Müqavilə üzrə mövcud təminatın və/və ya Müştərinin təqdim etdiyi əlavə təminatın dəyəri Bank tərəfindən bu məhsul üzrə müəyyən edilmiş kreditin təminata olan nisbəti (KTN) əmsalına uyğun hesab edildikdə və Müştəri Bank qarşısında olan öhdəliklərini vaxtında və lazımınca icra etdikdə, Bank öz mülahizəsinə əsasən kredit xəttinin məbləğinin artırılmasına razılığını bildirir. Eyni zamanda, Şərtlərin xüsusi hissəsinin 6.13-cü bəndində göstərilən hallarda, habelə girov predmetinin Müqavilə üzrə müəyyən olunmuş dəyəri azaldıqda, Bank kredit xəttinin məbləğini birtərəfli qaydada azalda bilər. Kredit xəttinin məbləğinin azaldılması Müştərinin Banka müraciəti əsasında da aparıla bilər.

6.3. Bankın girov predmetinə dair hüququ onun ləvazimatına da şamil edilir.

6.4. Öhdəliklər tam icra edilənədək Bank Müştərinin əmlak vəziyyətini, habelə girov predmetinin vəziyyətini yoxlayır, girov hüququnu ifadə edən nişanlar vurur və həmin əşyalar barədə Müştəridən hesabat tələb edir.

6.5. Girov predmetinə tutma yönəldilərkən və satılarkən onların bu Müqavilədə göstərilən dəyərləri deyil, həmin an üçün malik olduğu real satış qiymətləri tətbiq edilməlidir.

6.6. Girov predmeti qismində ipoteka predmet(lər)i çıxış etdikdə, Şərtlərin bu fəslində göstərilən şərtlər həmin ipoteka predmet(lər)inə aid edilir.

6.7. Müqavilənin qüvvədə olduğu müddət ərzində ipoteka predmeti Bankın xüsusi yazılı razılığı olmadan, Azərbaycan Respublikasının ərazi hüdudlarından kənara çıxarıla bilməz. Razılığın verilməsi şərtləri Bank tərəfindən müəyyən olunur.

6.8. Zamin, Müqavilədən irəli gələn pul öhdəlikləri (bundan sonra "Zaminliklə təmin olunan öhdəlik") Müştəri tərəfindən icra edilmədikdə və ya lazımınca icra edilmədikdə həmin öhdəliklərin tamamilə icra edilməsi üçün tam məsuliyyəti öz üzərinə götürür və Bank qarşısında Müştəri ilə birlikdə birgə məsuliyyət daşıyır.

6.9. Zaminin tam məsuliyyət daşıdığı zaminliklə təmin edilmiş öhdəliklərə Kredit Sazişi ilə müəyən olunan əsas borc, faizlər, dəbbə pulu, bundan başqa, xidmət haqları, xərclər və dəymiş ziyanın ödənilməsi kimi pul öhdəlikləri daxildir.

6.10. Zamin bəyan edir ki, öz əmlak və maliyyə vəziyyəti barəsində tam və düzgün məlumatı Banka təqdim etmişdir və Müqavilə onun, əri/arvadı, uşaqları və himayəsində olan şəxslərin hüquq və qanunla qorunan mənafelərini pozmur.

6.11. Girov və zaminliklə təmin edilən əsas öhdəliyin mahiyyəti, ölçüsü, icra müddəti və digər rekvizitləri kredit Sazişində göstərilir.

VII. Tərəflərin hüquq və vəzifələri

7.1. Bankın hüquq və vəzifələri:

7.1.1. Bank aşağıdakı hallarda kredit üzrə əsas borc qalığının, hesablanmış faizlərin, gecikdirilmə faizlərinin, cərimənin, komisyon haqlarının və digər xərclərin vaxtından əvvəl ödənilməsini tələb edə, habelə kartın mülkiyyətçisi kimi müvafiq tədbirlər görə və bank praktikası ilə müəyyən olunmuş digər sanksiyalar tətbiq edə bilər:

a) Müqavilə üzrə vaxtı çatmış borcun (faizlər və/və ya haqlar daxil olmaqla) 90 (doxsan) gün və ya daha çox müddətə gecikdirilməsi, yaxud borcun (faizlər və/və ya haqlar daxil olmaqla) ödənilməsi müddətlərinin ardıcıl olaraq iki dəfə pozulması (90 (doxsan) gündən az olmamaqla);

b) Müştərinin əmlak vəziyyəti əhəmiyyətli (Müqavilə üzrə pul öhdəliklərinin icra edilməsi üçün təhlükə yaradan) dərəcədə pisləşdikdə, o cümlədən, müqavilə bağlanılmazdan əvvəl baş vermiş və müqavilə bağlanılan anadək aradan qaldırılmamış pisləşmə Banka sonradan məlum olduqda və ya Müştərinin Banka hər hansı yanlış məlumat verməsi səbəbindən kreditin vaxtımda qaytarılmayacağını güman etməyə əsaslar olduqda;
c) Müştəri tərəfindən kreditdən təyinatı üzrə istifadə edilmədikdə (Bank tərəfindən Müştəriyə bildirilmiş və istisna olunan fəaliyyət növü üzrə istifadə etdiyi müəyyən olunduqda) və ya Müştəri Banka kreditin təyinatı üzrə istifadə edilməsinə müqavilədə nəzərdə tutulmuş qaydada nəzarət etməyə imkan verмədikdə;
d) Müştəri kredit öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə, Bankın cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə (məhv olduqda, xitam verildikdə və s.) və yaxud dəyəri azaldıqda (o cümlədən, qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə) və bu hallarda kreditin vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda, bir şərtlə ki, Müştəri Bank tərəfindən tələb irəli sürüldükdən sonra 2 (iki) ay ərzində təminatı əvəz etməmiş və ya əlavə təminat təqdim etməmiş olsun;
e) Qanunvericilikdə, həmçinin bank tənzimləyicisinin aktlarında nəzərdə tutulmuş digər hallarda.

7.1.2. Müqavilənin 7.1.1-ci yarımbəndində göstərilən hallarda Bank öhdəliklərin icrasını girov predmetinə tutma yönəldilməsi yolu ilə və/və ya Müştərinin digər əmlakları hesabına tələb edə bilər;

7.1.3. Bank xidmət tariflərini və şərtlərini müəyyən edir və Müştərinin vəziyyətini yaxşılaşdıran, o cümlədən, borc yükünü yüngülləşdirən şərtləri birtərəfli qaydada dəyişdirir.

7.1.4. Müştərinin Bank qarşısında bir və ya bir neçə icra edilməli öhdəliyi olduqda əvvəlcə icra edilməli olanı seçir;

7.1.5. Müştəri kreditin qaytarılması üzrə öhdəliklərini Ödəniş cədvəlində müəyyən edilmiş ödəniş ardıcıllığına riayət etmədən vaxtından əvvəl tam və ya qismən icra etdikdə, Müştəridən vaxtından əvvəl icra edilmiş ödəniş hissəsinə aid faizlərin və/və ya digər haqları, həmçinin, qanunvericiliyin tələbləri nəzərə alınmaqla, dəymiş zərərin əvəzi olaraq, kompensasiya məbləğinin ödənilməsini tələb edə bilər; ödənilməsini tələb edə bilər;

7.1.6. Müştəri Müqavilə üzrə ödənişlərini vaxtında və lazımınca icra etmədikdə, Müştərinin və/və ya Zaminin sərəncamı olmadan birtərəfli qaydada Müştərinin və/və ya Zaminin Bankdakı hesab(lar)ından müvafiq həcmdə vəsaiti silir;

7.1.7. Müştəri tərəfindən Bank qarşısında olan kredit öhdəlikləri vaxtında və lazımınca icra edilmədikdə, habelə Müştərinin kredit öhdəliklərinin ümumi həcmi Bank qarşısında olan öhdəliklərinin icrası üçün təhlükə yaradacaq dərəcədə artdıqda və ya kreditlərdən hər hansı birinin ümidsiz kreditə çevrilməsi ilə bağlı Bankın başqa ehtimalları yarandıqda Müştəriyə ayrılmış kredit xətti məbləğindən istifadəni tam və ya qismən məhdudlaşdıra və bununla əlaqədar olaraq Müştəriyə verilmiş kartdan istifadəni özünün müəyyən etdiyi formada məhdudlaşdıra bilər;

7.1.8. Müştərinin borcu onun zamini və/və ya girov qoyanı qismində çıxış edən Bankın partnyorları tərəfindən ödənildikdə, sonradan Müştəri tərəfindən ödənilmiş vəsaitləri sonuncunun sərəncamı olmadan, eyni məbləğdə həmin partnyorların hesabına silir;

7.1.9. Müqavilə ilə üzərinə götürdüyü öhdəlikləri vaxtında və lazımınca icra etməyi və onların pozulmasına yol verməməyi Müştəridən tələb edir;

7.1.10. Müştərinin əmlak və maliyyə vəziyyətini nəzərə alaraq onun barəsində yüngülləşdirici hallar tətbiq edə bilər;

7.1.11. Müştərinin Bank qarşısında icra edilməmiş və ya lazımınca icra edilməmiş borcu olduqda və/və ya bankdaxili müvafiq korporativ aktlara uyğun digər hallarda kart hesabı üzrə Müştərinin sərəncamlarını icra etməkdən imtina edir;

7.1.12. Uzunmüddətli kredit xətti açıldığı halda kartdan istifadə müddəti bitdikdən sonra Müştərinin əvvəlki öhdəliklərini lazımınca icra etməsini, müsbət ödəmə tarixçəsinə malik olmasını və digər bu kimi əsasları nəzərə alaraq, yeni kart təqdim etməklə, kredit xəttindən növbəti müddət üçün istifadə imkanının yaradılması barədə qərar qəbul edir;

7.1.13. Xidmət şərtlərinin tələbi nəzərə alınmaqla, öz mülahizəsinə uyğun olaraq kredit xəttindən istifadə müddətinin artırılması ilə bağlı qərar qəbul edir;

7.1.14. Müqavilə üzrə, qanunvericiliklə müəyyən edilən imkanlar və hədlər daxilində, cərimələrin tətbiq edilməsi barədə qərar qəbul edir;

7.1.15. Müştərinin kredit xətti məbləğinin dəyişdirilməsi ilə bağlı müraciətlərinə baxır;

7.1.16. Nağd pul kreditləri üzrə ayrılmış kredit məbləğlərini Müştərinin hesabına köçürür və onun tələbi ilə həmin vəsaitin ona nağd və ya köçürmə yolu ilə verilməsini təmin edir;

7.1.17. Kreditin ödənilməsinin uçotunu aparır, ödənişləri Müştəridən qəbul edir və bu barədə ona müvafiq təsdiqedici sənəd(lər) təqdim edir;

7.1.18. Kartın itirilməsi barədə Müştəridən məlumat aldıqdan sonra kartla əməliyyatları dayandırır və kartın nömrəsini stop-vərəqəyə daxil edir;

7.1.19. Müqavilə qüvvədə olduğu müddətdə Müştərinin sorğusu əsasında, kağız daşıyıcıda hər təqvim ili ərzində iki dəfə, digər davamlı daşıyıcıda isə istənilən zaman kreditin qalığı barədə hesabdan çıxarışı kreditin ödəniş qrafiki şəklində, ödənişsiz olaraq

Müştəriyə təqdim edir. Müştərinin tələbi ilə kağız daşıyıcıda, təqvim ili ərzində iki dəfədən artıq hesab üzrə çıxarışları isə Bankın cari xidmət tarifləri və şərtləri əsasında təqdim edir;
7.1.20. Ödəniş kartı Müştərinin ünvanına çatdırılacağı halda zəruri təhlükəsizlik tədbirlərinin görülməsini təmin edir;
7.1.21. Müştəri tərəfindən aparılan bank əməliyyatlarına görə ödənilməli olan xidmət haqlarını onun Bankdakı hesablarında olan vəsaitlərdən birtərəfli qaydada tuta bilər (bu müddəa Müştərinin qabaqcadan aksepti faktını təsdiq edir).

7.2. Müştərinin hüquq və vəzifələri:
7.2.1. Hesabında olan kredit məbləğinin nağd və ya köçürmə yolu ilə ona çatdırılmasını, aylıq ödənişlərin təsdiqi barədə sənədlərin təqdim edilməsini Bankdan tələb edir;
7.2.2. Kredit xətlərindən birdəfəlik və ya hissə-hissə istifadə edir;
7.2.3. Müqavilə ilə müəyyən olunan şərtlərlə kartla əməliyyatlar aparır;
7.2.4. Kredit xətti məbləğinin dəyişdirilməsi ilə bağlı Banka müraciət edir;
7.2.5. Kartın istifadə müddəti bitdikdə Banka yeni kartın verilməsi ilə bağlı yazılı müraciət edir;
7.2.6. Kart hesabından pul vəsaitinin əsassız silinməsinə və səhv ödənişlərə dair ödəniş sisteminin qayda və şərtlərinə uyğun olaraq, araşdırma aparılması üçün müraciət edir və müvafiq hallarda əsassız silinmiş məbləğin və ya Bankın səhvi nəticəsində edilmiş ödənişin geri qaytarılmasını tələb edir;
7.2.7. Kreditin qaytarılması üzrə öhdəliyini ödəniş gününədək borc qalığı məbləğinin və digər ödənişlərin (faiz, komisyon haqlar və s.) ödənilməsi şərtilə vaxtından əvvəl icra edir;
7.2.8. Ödəniş cədvəli ilə müəyyən edilən hissə-hissə ödənişləri, kredit xətləri üzrə ödənişləri, faizləri, komisyon haqları və gecikmə zamanı hesablanmış gecikdirilmə faizlərini, cərimə məbləğlərini və Bankın xidmət tarifləri və şərtlərindən irəli gələn xidmət haqlarını Banka ödəyir. Əsas borc məbləği üzrə ödənişlərə möhlət verildiyi aylar istisna olmaqla, əsas borc üzrə qabaqcadan əlavə ödəniş edildiyi halda, faiz borcu üzrə gecikmələr gecikmə kimi nəzərə alınmır;
7.2.9. Kredit məhsulunun xüsusiyyətləri nəzərə alınmaqla, bu Şərtlərin xüsusi hissəsində müəyyən edildiyi hallarda, Ödəniş cədvəlini əldə etmək üçün müəyyən edilmiş müddətlərdə Banka müraciət edir;
7.2.10. Kreditin rəsmiləşdirilməsi üçün Banka təqdim edilən sənədlərdə və digər məlumatlarda baş vermiş dəyişikliklər barədə bütün məlumatları müvafiq təsdiqedici sənədlərlə birlikdə 5 (beş) gün ərzində Banka təqdim edir;
7.2.11. Girov predmetini yoxlamaq üçün Bankın nümayəndəsinə lazımi şəraiti yaradır və Bankın bu məqsədlə verilmiş sorğularını cavablandırır;
7.2.12. Girov predmetini Bankın qabaqcadan yazılı razılığı olmadan dəyişdirmir və digər öhdəliklər üçün yenidən yüklü etmir (sonrakı girov);
7.2.13. Girov predmetinin sığorta olunmasını (tələb olunduqda) və onun salamatlığını təmin edir, üçüncü şəxslərin qəsdlərindən, tələblərindən müdafiə edir və onun məhv olması, itirilməsi və ya zədələnməsi təhlükəsi yarandıqda Banka dərhal yazılı məlumat verir;
7.2.14. Girov predmeti itirildikdə, məhv olduqda və ya onun dəyəri Müqavilə üzrə müəyyən olunmuş dəyərindən 60%-dən çox azaldıqda Bankın tələbi ilə girov predmetini qalıq borc məbləğinə uyğun olaraq digər təminatla əvəz edir;
7.2.15. Müqavilə üzrə öhdəliklərinin icrasını gecikdirdikdə Bankın tələbi ilə girov predmetini Bankın saxlancına təhvil verir. Ödəmə qabiliyyəti azaldıqda Bankın tələbinin girov predmeti hesabına ödənilməsi üçün onunla girov predmetinə tutma yönəldilməsi haqqında notariat qaydasında təsdiqlənən razılaşma bağlayır və ya həmin əmlakın açıq bazarda satılması üçün Banka hüquq verir və lazımi şərait yaradır. Bu halda notariat xərcləri müştəri tərəfindən ödənilir.
7.2.16. Zamini və/və ya girov qoyanı qismində çıxış edən Bankın partnyorları tərəfindən borcu ödənildikdə, sonradan ödədiyi vəsaitlərin sərəncamı olmadan həmin partnyorların hesabına silinməsinə etiraz etmir;
7.2.17. Hesabından pul vəsaitinin əsassız silinməsi və səhv ödənişlərin aparılmasına dair araşdırma zamanı silinmənin və ya ödənişin əsaslı olması müəyyən olunarsa, araşdırmaya görə Bankın xərclərini ödəyir;
7.2.18. Kart və ya əlavə kart itirildikdə, itirilmiş kartın ŞEN kodunun düzgün göstərilməsi şərti ilə bu barədə dərhal yazılı, bu mümkün olmadıqda isə telefon vasitəsilə Banka məlumat verir;
7.2.19. Bankda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) haqqında qanunvericiliyin tələblərini pozmamaqla əməliyyat aparacağına təminat verir. Əks halda Bank Müqaviləyə birtərəfli qaydada xitam verə bilər;
7.2.20. Amerika Birləşmiş Ştatlarının Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktının (FATCA) tələblərinə uyğun olaraq zəruri məlumatları Banka təqdim edəcəyini, həmçinin bu aktdan irəli gələn tədbirlərin görülməsinə və Bank tərəfindən məlumatların Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikasının müvafiq orqanlarına təqdim edilməsinə etiraz etməməyi öhdəsinə götürür;
7.2.21. Ümumi Hesabatlılıq Standartı əsasında xarici dövlətlərin fiziki və hüquqi şəxslərinə məxsus hesablar üzrə hərtərəfli yoxlama prosedurlarının (CRS) tələblərinə uyğun olaraq zəruri məlumatları Banka təqdim edəcəyini, həmçinin bu aktdan irəli gələn tədbirlərin görülməsinə və Bank tərəfindən məlumatların Azərbaycan Respublikasının müvafiq

orqanlarına təqdim edilməsinə etiraz etməməyi öhdəsinə götürür;
7.2.22. Bu Müqavilə və Bankın xidmət tarifləri və şərtləri əsasında bank xidmətlərindən istifadə üzrə xidmət haqlarını Banka ödəyir.

7.3. Zaminin hüquq və vəzifələri:
7.3.1. Müştəri Müqavilə üzrə üzərinə düşən öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, Bankın ilk tələbi ilə zaminliklə təmin edilmiş öhdəliyi dərhal icra edir;
7.3.2. Zaminliklə təmin edilmiş öhdəliklərin icrası üçün bütün əmlakı ilə məsuliyyət daşıyır;
7.3.3. Zaminliklə təmin edilmiş öhdəliyin tələb hüququnun başqa şəxsə keçməsinə etiraz etmir;
7.3.4. Banka təqdim edilən sənədlərdə və digər məlumatlarda baş vermiş dəyişikliklər barədə bütün məlumatları müvafiq təsdiqedici sənədlərlə
birlikdə 5 (beş) gün ərzində Banka təqdim edir;
7.3.5. Zaminliklə təmin edilmiş öhdəlikləri icra etdikdən sonra icranı təsdiq edən müvafiq sənədləri Bankdan tələb edə bilər;
7.3.6. Müqavilə ilə üzərinə götürdüyü vəzifələri vaxtında və lazımınca icra etməyi və onların pozulmasına yol verməməyi öhdəsinə götürür.

VIII. Tərəflərin məsuliyyəti

8.1. Müqavilə üzrə öz vəzifəsini icra etməyən və ya lazımınca icra etməyən Tərəf digər Tərəfə vurduğu zərərə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən olunan qaydada məsuliyyət daşıyır və qarşı Tərəfə vurduğu zərəri tam həcmdə ödəməlidir.
8.2. Tərəflərin istifadə ediləcək hər bir kredit məhsulu üzrə məsuliyyətinin həcmi Şərtlərin xüsusi hissəsinin müvafiq məhsula aid bölməsində qeyd edilir.
8.3. Nəzərdə tutulmuş gecikdirilmə faizləri, cərimə və zərərin əvəzinin ödənilməsi Müştərini Müqavilə üzrə əsas öhdəliklərinin (əsas borc, hesablanmış faiz və komisyon haqların və digər ödənişlərin) icrasından azad etmir.
8.4. Kredit üzrə Müştəri tərəfindən ödənilən məbləğ ilk növbədə Banka dəyən zərərin, sonra hesablanmış gecikdirilmə faizlərinin, cərimənin, kredit üzrə faizlərin və komisyon haqların, ən nəhayət, kreditin ödənilməsinə yönəldilir. Bank bu bənddə göstərilən, ödənilən məbləğin yönəldilməsi ardıcıllığından fərqli ardıcıllıq müəyyən edə bilər.
8.5. Bank, kartın Müştərinin faktiki sahibliyində olub-olmamasından asılı olmayaraq, kart hesabı üzrə aparılan əməliyyatların (o cümlədən, mobil tətbiqlər və elektron platformalar üzərindən həyata keçirilən əməliyyatların, həmçinin kartla bağlı hər hansı fırıldaqçılıq (“fraud”) əməliyyatlarının) və ŞEN koddan istifadə edilməsinin nəticələrinə görə məsuliyyət daşımır.
8.6. Fors-major hallarda (rəsmi qaydada aidiyyəti dövlət orqanları tərəfindən elan edilmiş hallar) tərəflər Müqavilə şərtlərinin tam və ya qismən yerinə yetirilməməsinə görə bir-biri qarşısında heç bir maddi və digər məsuliyyət daşımırlar. Göstərilən səbəblərdən Müqavilənin icrası mümkün olmadıqda, onun icrası həmin halın mövcud olduğu müddət ərzində dayandırılır və Müqavilənin müddəti fors-major halın mövcud olduğu müddətə uzadılır. Tərəflərdən hər biri baş vermiş fors-major halın nəticələrinin aradan qalxdığı gündən 5 (beş) gün müddətində qarşı tərəfə xəbər verməyə və istinad etdiyi fors-major halın mövcudluğunu sübut etməyə borcludur.

IX. Müqavilənin hüquqi qüvvəsi, şərtlərinin dəyişdirilməsi və ləğv edilməsi

9.1. Xidmət şərtləri Tərəflər arasında bağlanan Kredit sazişlərinin/Sazişlərin ayrılmaz tərkib hissəsi olmaqla onların əsasını təşkil edir. Müştəri Kredit sazişini/Sazişi Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalamaqla, Şərtlərlə tanış olduğunu və bağlanan Kredit sazişləri/Sazişlər üzrə onun hüquq və vəzifələrinin Şərtlərlə müəyyən edildiyini qəbul edir.
9.2. Xidmət şərtləri istehlak kreditləşdirilməsi sahəsində Tərəflər arasında gələcəkdə bağlanacaq Kredit sazişləri üzrə də tətbiq ediləcəyindən, qeyri-müəyyən müddətdə qüvvədədir.
9.3. Kredit sazişləri tərəflərin Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzaları ilə təsdiq edildiyi andan hüquqi qüvvəyə minir və öhdəlik üzrə kredit, faizlər, komisyon haqlar və digər pul tələbləri ilə bağlı öhdəliklər Bankın xeyrinə icra olunduğu andan qüvvədən düşür. Öhdəliyin ölçüsü, icra müddəti və digər şərtləri Kredit sazişlərində göstərilir.
9.4. Xidmət şərtlərinə ediləcək əlavə və dəyişikliklər barədə məlumat www.bankofbaku.com rəsmi internet saytında və ya digər saytlarda yerləşdirilir.
9.5. Kredit sazişinin şərtlərinin dəyişdirilməsi və ya ona əlavələr edilməsi, əgər tərəflər arasında ayrı qayda müəyyən edilməyibdirsə, tərəflərin qarşılıqlı razılığına əsasən yazılı qaydada aparılır və tərəflərin Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzaları ilə təsdiq edildiyi andan hüquqi qüvvəyə minir. Kredit sazişinin müvafiq tərəfə aid olan şərtləri isə yalnız Bank və həmin tərəfin razılığı ilə (digər tərəflərin iştirakı olmadan), onlar arasında yazılı qaydada rəsmiləşdirilməklə aparılır (bu şərtlə ki, həmin tərəflərin Müqavilə ilə müəyyən olunan vəziyyətini pisləşdirməsin və ya onlar üçün əlverişsiz şərait yaratmasın) və Bankla müvafiq tərəfin Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzaları ilə təsdiq edildiyi andan hüquqi qüvvəyə minir. Tərəflər həmçinin qəbul edir ki, Kredit sazişinin onlarla bağlı olmayan hissələri Bankla müvafiq tərəf arasında Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalanan

razılaşma əsasında dəyişdirilə və ya ona əlavələr edilə bilər.
9.6. Müştəri yalnız krediti, faizləri, komisyon haqları və Bankın digər pul tələblərini tam icra etdikdən sonra Xidmət şərtlərinin ümumi hissəsinin 7.2.7-ci yarımbəndinə əsasən Müqaviləni birtərəfli qaydada vaxtından əvvəl ləğv edə bilər.
9.7. Əlavə və dəyişikliklər Müqavilənin ayrılmaz və tərkib hissəsi hesab olunur.

X. Kommersiya və bank sirri

10.1. Tərəflərdən hər biri bu Müqavilə çərçivəsində təqdim edilmiş məlumatları məxfi saxlamağı və həmin məlumatlar üzərində əqli mülkiyyət hüquqlarını pozmamağı öhdəsinə götürür.
10.2. Bank hesabının və bank əmanətinin, hesab əməliyyatlarının və Müştəri haqqında məlumatların sirrinə Bank təminat verir.
10.3. Bank sirri təşkil edən məlumatlar yalnız Müştəriyə və ya onun səlahiyyətli nümayəndələrinə və ya qanunvericiliklə nəzərdə tutulan hallarda digər şəxslərə verilir. Müştəri bu Müqavilə üzrə bank xidmətlərinin təşkili, tələb hüquqlarının ötürülməsi, borcun alınmasının təmin edilməsi, kredit üzrə hər hansı bir pozuntunun aşkar olunması zamanı və Bankın zəruri hesab etdiyi digər hallarda bank sirrini təşkil edən məlumatların Bankın əməkdaşlarına, Müştərinin iş yerinə, Bankın əməkdaşlıq etdiyi aidiyyətı üzrə şəxslərə, müxbir banklara, müvafiq dövlət orqanlarına, habelə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) sahəsində aidiyyəti şəxslərə və qurumlara, həmçinin Bankın zəruri hesab etdiyi digər şəxslərə verilməsinə etiraz etmədiyini qəbul edir. Kredit sazişini/Sazişi Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalamaqla Müştəri, eyni zamanda, Bankın əməkdaşlıq etdiyi şəxslərin təklif etdiyi stimullaşdırıcı xidmətlərdən yararlanmaq məqsədilə, müvafiq mobil tətbiqlərdə, korporativ saytlarda, habelə internet bankçılıq üzərindən qeydiyyatdan keçmək üçün tələb olunan, ona məxsus və bu Müqavilə çərçivəsində Banka təqdim etdiyi fərdi məlumatlarının (telefon nömrəsi və s.) həmin şəxslərə verilməsinə etiraz etmədiyini təsdiq edir.

XI. Əlavə şərtlər

11.1. Kredit sazişini Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalamaqla Müştəri və Zamin bəyan edirlər ki, Müqavilə üzrə öhdəliklərini tam və ya lazımınca icra etmədikdə, öhdəliyin icrasının təmin edilməsi istiqamətində qanunvericiliyə və Müqaviləyə müvafiq olaraq tədbirlərin görülməsi məqsədilə, Bank tərəfindən onların yaşadığı ünvana və/və ya iş yerinə müvafiq məktublar, bildirişlər göndərilməsinə və ya Bank əməkdaşlarının/nümayəndələrinin onların yaşadığı ünvana və/və ya iş yerinə gəlməsinə etiraz etmirlər.
11.2. Müqavilə üzrə gecikdirilmə faizlərinin, cərimə məbləğinin hesablanması üçün müəyyən edilmiş müddətlərdən, habelə öhdəliklərin icra müddətlərindən güzəştlər, Müqavilədə xüsusi olaraq qeyd edilmədiyi halda, Bank tərəfindən Müştərinin xeyrinə birtərəfli qaydada müəyyənləşdirilərək tətbiq edilə bilər. Tətbiq ediləcək güzəştlər barədə məlumat www.bankofbaku.com internet saytında yerləşdirilə və ya Müştəriyə digər formada çatdırıla bilər.
11.3. Müqavilə ilə bağlı hər hansı bir tələb, bildiriş, xəbərdarlıq və s. sənədlər tərəflərin Kredit sazişində göstərilən və ya Banka təqdim olunan ünvanına yazılı şəkildə, bildirişli sifariş məktubu ilə göndərildikdə Müştəriyə (olduqda, həmçinin Zamin, Girov qoyan və Müqavilənin digər tərəflərinə) çatdırılmış hesab olunur (bu müddəa elektron məlumat və sənəd mübadiləsi hallarında Kredit sazişində/Sazişdə göstərilən əlaqə vasitələrindən, o cümlədən Bankın elektron (mobil) bankçılıq xidmətlərindən istifadə edilməklə göndərilən məlumat və sənədlərə şamil edilmir).
11.4. Məhsullar, yeniliklər və kampaniyalar barədə məlumatlar, bildirişlər Bank tərəfindən Müştərinin Sazişdə qeyd etdiyi mobil telefon nömrəsinə SMS-lə və/və ya elektron poçt ünvanına göndərilə bilər. SMS-lə bildirişlərin təqdim edilməsi üçün Bank tərəfindən xidmət haqqı müəyyən edilə bilər. Müştərinin təqdim etdiyi fərdi məlumatlandırma vasitələri dəyişdikdə və ya hər hansı dövrdə Müştəri məlumtların başqa ünvanlara göndərilməsini istədikdə, bu barədə əvvəlcədən Banka müvafiq qaydada məlumat verməlidir. Bu barədə məlumat verilmədiyi halda Bank tərəfindən Sazişdə göstərilən ünvanlara göndərilən bütün məlumatlar, bildirişlər Müştəriyə çatdırılmış hesab edilir.
11.5. Kredit sazişini/Sazişi Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalamaqla Tərəflər Bank tərəfindən SMS və/və ya digər vasitələrlə məhsullar barədə reklam xarakterli bildirişlərin, məhsullar barədə yeniliklərin, Bank və ya onun partnyorları tərəfindən keçirilən kampaniyalar barədə məlumatların onların mobil telefon nömrələrinə və digər ünvanlarına göndərilməsinə etiraz etmirlər və bununla bağlı Banka SMS və digər vasitələrlə məlumatları göndərmək hüququnu verirlər.
11.6. İstehlakçıların şikayətlərinə baxılması üçün Bankın müvafiq struktur bölməsinin və AMB-nin əlaqə vasitələri aşağıdakılardır:

- Struktur bölmənin telefon nömrəsi: 145 (4);
- Struktur bölmənin elektron poçt ünvanı: Shikayet@bankofbaku.com;
- Struktur bölmənin poçt ünvanı: “Bank of Baku” ASC, Atatürk 50A, AZ 1069.
- AMB-nin əlaqə vasitələri: +994124935058 telefon nömrəsi və +99412966 qaynar xətti.

11.7. Kredit sazişini Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalamaqla Tərəflər Bankda öz kredit borcları haqqında məlumatların alınması və onun haqqında toplanan məlumatlarda qeyri-dəqiqliyin aradan qaldırılması üçün Banka Mərkəzləşdirilmiş Kredit Reyestrinə (MKR) və kredit bürolarına müraciət etmək hüququnu verir.
11.8. Bank Müqavilədən irəli gələn hüquq və vəzifələrini, Müştərinin razılığı olmadan, üçüncü şəxsə verə bilər. Müştəri isə yalnız Bankın yazılı razılığı ilə belə hüquqa malikdir.
11.9. Müştərinin vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi və ya Banka hər hansı yanlış məlumat verməsi səbəbindən kreditin vaxtında qaytarılmayacağı açıq-aşkar bəlli olduqda, yaxud Müştəri kreditin verilməsi üçün Müqavilədə nəzərdə tutulmuş öhdəliyini icra etmədikdə, o cümlədən, təminat təqdim etmədikdə, Bank kredit vermək öhdəliyini tam və ya qismən icra etməkdən birtərəfli qaydada imtina edə bilər.
11.10. Müştəri Müqavilə üzrə pul vəsaitinin ona verildiyi gündən 30 (otuz) gün müddətində heç bir səbəb göstərmədən, Müqavilədən imtina edə bilər. Bu halda, Müştəri Müqavilə üzrə ona verilmiş pul vəsaitini və həmin pul vəsaitinin verildiyi gündən qaytarıldığı günədək hesablanan faizləri ödəməlidir. Bank tərəfindən ödənilən dövlət rüsumu və xidmət haqlarının məbləği istisna olmaqla, Müştəridən kompensasiya və hər hansı digər ödəniş tələb edilə bilməz.
11.11. Bu Xidmət şərtləri ilə müəyyən olunan imtina əsaslarına əlavə olaraq, Bank həmçinin aşağıdakı hallarda kredit vermək öhdəliyini tam və ya qismən icra etməkdən birtərəfli qaydada imtina edə bilər:
11.11.1. İqtisadi şəraitin dəyişməsi nəticəsində Müştərinin Bank qarşısında olan öhdəliklərini yerinə yetirilməsinə mənfi təsir göstərə biləcək risklər mövcud olduqda;
11.11.2. Kreditin verilməsindən sonra bazarda faiz dərəcələri Bank tərəfindən müəyyən edilmiş həddən çox, əhəmiyyətli dərəcədə dəyişdikdə;
11.11.3. Bankın kifayət qədər likvid vəsaiti olmadıqda və ya likvidlik mövqeyinin pisləşməsi və bu sahədə bank tənzimləyicisi tərəfindən müəyyən edilmiş prudensial normativlərin pozulması riskləri mövcud olduqda;
11.11.4. Bank tənzimləyicisi tərəfindən müəyyən edilmiş prudensial normativlərin pozulması riski olduqda;
11.11.5. Bankın maliyyə dayanıqlığının pisləşməsi riskləri mövcud olduqda;
11.11.6. Müştərinin mənfi kredit tarixçəsi yarandıqda;
11.11.7. Müştərinin müflisləşməsi barədə məlumat əldə edildikdə;
11.11.8. Müştəri müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edildikdə;
11.11.9. Məhkəmə və digər orqanlar tərəfindən Müştərinin gəlirlərindən və hesablarından məcburi icra ödənişlərinin (cərimə, sağlamlığa zərər vurma və s.), tutulmaların həyata keçirilməsi barədə qərar qəbul edildikdə;
11.11.10. Müştəriyə və Müştəri sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda onun ərinə/arvadına, yaxud hər hansı təminatçıya qarşı məhkəmədə onun əmlak vəziyyətini əhəmiyyətli dərəcədə pisləşdirən və ya pisləşdirə bilən iddia tələbi irəli sürüldükdə, göstərilən şəxslərin bu və ya digər əmlak (təminatçının girov (ipoteka) ilə yüklü edilmiş əmlakı) üzərində mülkiyyət hüquqlarına xitam veriləcəyi ilə bağlı ehtimallar yarandıqda və ya müvafiq orqanlar tərəfindən inzibati icraata başlandıqda və ya Müştəri ilə əlaqədar hər hansı cinayət üzrə ibtidai və məhkəmə araşdırmasının başlanılması və ya aparılması barədə məlumat daxil olduqda;
11.11.11. Müştərinin kreditdən təyinatına uyğun istifadə edib-etməməsinə, habelə şəxsi və təsərrüfat fəaliyyəti ilə bağlı maliyyə vəziyyətinin monitorinqi məqsədilə gəlmiş Bankın səlahiyyətli nümayəndələrinin vəzifələrini icra etmələrinə şərait yaratmadıqda;
11.11.12. ESİ (Ekoloji, Sosial, İdarəetmə) faktorları üzrə tələblər Müştəri tərəfindən nəzərə alınmadıqda və ya pozulduqda;
11.11.13. Müqavilə üzrə Müştərinin öhdəliklərinin icrasını təmin etmək üçün bağlanmış girov, qarantiya və zaminlik müqaviləsi etibarsız hesab edildikdə və ya həmin müqavilə(lər)yə vaxtından əvvəl xitam verildikdə.
11.12. Bu Xidmət şərtləri ilə müəyyən olunan əsaslara əlavə olaraq, Bank həmçinin aşağıdakı hallarda kredit xəttindən (kartından) istifadə imkanını birdəfəlik dayandıra və ya məhdudlaşdıra bilər:
11.12.1. Müştərinin digər öhdəlikləri (vergi borcları və sair) üzrə gecikmələri yarandıqda;
11.12.2. Müştəri barədə cinayət işi başlandıqda, inzibati və ya cinayət məsuliyyətinə cəlb edildikdə;
11.12.3. Müştərinin risklilik dərəcəsi Bankın kredit risklərinin idarəedilməsi strategiyasına və siyasətinə əsasən müəyyən edilən Bankın daxili risk reytinqi üzrə Bank üçün əlverişli olmayan səviyyəyə çatdıqda;
11.12.4. Müştərinin sahibkarlıq fəaliyyətinə istənilən səbəbdən xitam verildikdə və ya Müştəri vergi uçotundan çıxarıldıqda və ya riskli vergi ödəyicisi olduqda;
11.12.5. Müştəri tərəfindən qeyri-qanuni əməliyyatların aparılmasına dair şübhələr olduqda;
11.12.6. Müştəri Bank tərəfindən müəyyən edilmiş müddətdə özünün işgüzar fəaliyyəti haqqında Banka yazılı məlumat verməsə;
11.12.7. Müştəri və ya təminatçı Bankın razılığı olmadan Müqaviləyə əsasən ona məxsus hüquqları və öhdəlikləri üçüncü şəxslərə verdikdə.

11.13. Zaminin Müştəriyə göstərdiyi zaminlik xidmətlərinə görə muzd almaq hüququ yoxdur.
11.14. Müqavilədə fəsillərə verilən adlar şərti xarakter daşıyır və müvafiq normaların təfsirində həlledici vasitə kimi istifadə oluna bilməz.
11.15. Kredit sazişi/Saziş Azərbaycan dilində tərtib edilmişdir və tərəflərin Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzaları ilə təsdiq olunduqdan sonra hüquqi qüvvəyə minir və tərəflərdə kağız və ya nəzərdə tutulduqda (Müqavilə elektron formada bağlanıldıqda) digər davamlı daşıyıcıda saxlanılır.
11.16. Müqavilə bağlanarkən, icra edilərkən və dəyişdirilərkən Tərəflər imzanın formalarından qarşılıqlı razılıqla istifadə edə bilərlər (Şərtlərin ümumi hissəsinin 11.17-ci bəndinin tələbindən irəli gələn hallar istisna olmaqla).
11.17. Qanunvericilik və bank tənzimləyicisinin aktları ilə nəzərdə tutulan, həmçinin Bank tərəfindən müəyyən edilən hallarda bəzi bank əməliyyatlarının aparılması üçün Müştəridən gücləndirilmiş elektron imzadan və/və ya digər gücləndirilmiş müştəri autentifikasiyası vasitələrindən istifadə edilməsi tələb edilə bilər.
11.18. Müqavilə ilə tənzimlənməyən münasibətlər və tərəflər arasında yaranan bütün mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qarşılıqlı razılıq yolu ilə və ya Azərbaycan Respublikasının məhkəmələri vasitəsilə həll edilir.
11.19. Tərəflər arasında yaranan bütün mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada, qarşılıqlı razılıq yolu ilə və ya Azərbaycan Respublikasının məhkəmələri vasitəsilə həll edilir.

XÜSUSİ HİSSƏ

Xidmət şərtlərinin xüsusi hissəsində ayrı-ayrı kredit məhsuluna aid olan və yalnız həmin məhsuldan istifadə edildiyi zaman tətbiqi nəzərdə tutulan xüsusi şərtlər əks etdirilir. Hər hansı kredit məhsuluna aid Kredit sazişi Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalandığı zaman Xidmət şərtlərinin ümumi hissəsi və Şərtlərin xüsusi hissəsinin müvafiq məhsula aid hissəsi tətbiq edilir. Şərtərin xüsusi hissəsində göstərilən şərtlə ümumi hissədə göstərilən şərt arasında uyğunsuzluq olduğu halda, Şərtlərin xüsusi hissəsində göstərilən şərtlərə üstünlük verilir.

I. Nağd pul krediti

Predmet:
1.1. Müqaviləyə görə, Bank Müştəriyə şəxsi ehtiyaclarının ödənilməsi məqsədi ilə məbləği, müddəti, faiz dərəcəsi, komisyon haqqı məbləği və digər rekvizitləri Kredit sazişində müəyyən edilən həcmdə kredit verir.
1.2. Müştəri Müqavilə üzrə verilmiş krediti və hesablanmış faizləri Müqavilənin ayrılmaz hissəsi olan Ödəniş cədvəlinə əsasən nağd və ya köçürmə yolu ilə Banka ödəməyi öhdəsinə götürür.
Məsuliyyət:
1.3. Müştəri Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə ödənilməmiş əsas borc qalığı məbləğinə 180 (bir yüz səksən) gün müddətində, illik faiz dərəcəsinə 5 faiz bəndi əlavə edilməklə, hesablanan gecikdirilmə faizlərini Banka ödəyir. Bu bənddə müəyyən edilən həddə gecikdirilmə faizləri tətbiq edildikdə, müştəridən əlavə dəbbə pulu (cərimə, penya) və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz. Əgər Banka dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, Bank Müştəridən həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.
1.4. Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə Bank tərəfindən qanunvericiliyin tələbləri nəzərə alınmaqla cərimə tətbiq edilərsə, Müştəri ödənişin gecikdirildiyi 2-ci gündən sonra növbəti 88 (səksən səkkiz) gün ərzində, ödənişin hər gecikdirildiyi gün üçün gecikdirilmiş əsas borc məbləğinin 1 (bir) faizi həddində, kreditin valyutasından asılı olaraq 0,50 manatdan/ABŞ dollarından/Avrodan az olmamaqla, Banka cərimə ödəyir.
Bonus ballarının (kəşbəkin) təqdim edilməsi və onlardan istifadə:
1.5. Həyata keçirilən layihə və kampaniyalar çərçivəsində Müştərilər tərəfindən nağd pul krediti əldə olunarkən, Bank tərəfindən Müştəriyə bonus ballarının (kəşbəkin) və/və ya endirimlərin təqdim edilməsi nəzərdə tutula bilər.
1.6. Bonus ballarının (kəşbəkin) təqdim edilməsi Bankın hüququdur və Bank bonus ballarının (kəşbəkin) həcmini, onlardan istifadə müddətlərini və qaydasını müəyyən etməkdə sərbəstdir. Hesablanacaq bonus ballarının (kəşbəkin) həcmi, onlardan istifadə qaydaları və müddətləri və digər zəruri məlumatlar Bankın xidmət tarifləri və şərtlərində və www.bankofbaku.com internet saytında göstərilir. Müştəri nağd pul kreditini əldə etməklə tətbiq edilən xidmət tarifləri və şərtləri ilə tanış olduğunu və onları qəbul etdiyini təsdiq edir.
1.7. Nağd pul kreditinin verilməsinə görə bonus balı (kəşbək) hesablandığı halda, vaxtından əvvəl kredit borcu tam olaraq geri qaytarılarsa, Bank hesablanmış və ödənilmiş bonus balına (kəşbəkə) mütənasib həcmdə məbləği Müştərinin Bankdakı müvafiq hesabından silə bilər (akseptsiz qaydada tuta bilər). Qeyd olunan hesabda yetərli məbləğdə vəsait olmadıqda, Bank müvafiq məbləği Müştərinin Bankda olan cari hesabından akseptsiz qaydada tuta və/və ya bunun üçün hesabda mənfi qalıq (texniki overdraft) yarada bilər.

II. Avtomobil krediti

Predmet:

2.1. Müqaviləyə görə, Bank Müştəriyə Kredit sazişində göstərilən və ipoteka predmeti olan əmlakın (avtomobilin) alınması və həmin əmlakın sığorta haqqının ödənilməsi məqsədi ilə məbləği, müddəti, faiz dərəcəsi, komisyon haqqı məbləği və digər rekvizitləri Kredit sazişində müəyyən edilən həcmdə kredit verir.

2.2. Müştəri Müqavilə üzrə verilmiş krediti və hesablanmış faizləri Müqavilənin ayrılmaz hissəsi olan Ödəniş cədvəlinə əsasən nağd və ya köçürmə yolu ilə Banka ödəməyi öhdəsinə götürür.

Məsuliyyət:

2.3. Müştəri Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə 180 (bir yüz səksən) gün müddətində, illik faiz dərəcəsinə 5 faiz bəndi əlavə edilməklə, ödənilməmiş əsas borc qalığı məbləğinə hesablanan gecikdirilmə faizlərini Banka ödəyir. Bu bənddə müəyyən edilən həddə gecikdirilmə faizləri tətbiq edildikdə, müştəridən əlavə dəbbə pulu (cərimə, penya) və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz. Əgər Banka dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, Bank Müştəridən həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

2.4. Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə Bank tərəfindən qanunvericiliyin tələbləri nəzərə alınmaqla cərimə tətbiq edilərsə, Müştəri ödənişin gecikdirildiyi 2-ci gündən sonra növbəti 88 (səksən səkkiz) gün ərzində, ödənişin hər gecikdirildiyi gün üçün gecikdirilmiş əsas borc məbləğinin 1 (bir) faizi həddində, kreditin valyutasından asılı olaraq 0,50 manatdan/ABŞ dollarından/Avrodan az olmamaq şərtilə Banka cərimə ödəyir.

III. Plastik kart üzrə kredit xətti

Predmet:

3.1. Müqaviləyə görə, Bank Müştəriyə şəxsi ehtiyaclarının ödənilməsi məqsədi ilə məbləği, müddəti, faiz dərəcəsi, komisyon haqqı məbləği və digər rekvizitləri Kredit sazişində müəyyən edilən həcmdə bərpa olunan kredit xətti açır.

3.2. Müqavilə üzrə istifadə edilmiş məbləğ kredit müddətində tamamən qaytarılmalıdır. Müştəri istifadə etdiyi məbləğ üzrə hesablanmış faizləri və əsas borcun (istifadə etdiyi məbləğin) həmin faizlər həcmində olan hissəsini hər növbəti ayın ilk 10 (on) günü ərzində Banka qaytarmalıdır. Həmin müddət ərzində hesablanmış faiz borcu tam ödənildikdə, əsas borcun tələb olunan hissəsi üçün növbəti ödəniş aralığının son gününədək güzəşt müəyyən olunur. Aylıq faiz borcunun ödənişi qeyd olunan qaydada davam etdiyi təqdirdə əsas borc üzrə güzəşt kredit müddətinin sonunadək davam edir. Faizlərin son ödənişi kreditin əsas məbləğinin son ödənişi ilə birlikdə həyata keçirilməlidir.

Məsuliyyət:

3.3.Müştəri Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə ödənilməmiş əsas borc qalığı məbləğinə 180 (bir yüz səksən) gün müddətində, illik faiz dərəcəsinə 5 faiz bəndi əlavə edilməklə, hesablanan gecikdirilmə faizlərini Banka ödəyir. Bu bənddə müəyyən edilən həddə gecikdirilmə faizləri tətbiq edildikdə, müştəridən əlavə dəbbə pulu (cərimə, penya) və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz. Əgər Banka dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, Bank Müştəridən həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

3.4. Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə Bank tərəfindən qanunvericiliyin tələbləri nəzərə alınmaqla cərimə tətbiq edilərsə, Müştəri hər təqvim ayının 11-dən başlayaraq növbəti 80 (səksən) gün ərzində aylıq tələb olunan əsas borcun 1 (bir) faizi həddində, kreditin valyutasından asılı olaraq 0,50 manatdan/ABŞ dollarından/Avrodan az olmamaq şərtilə Banka cərimə ödəyir.

IV. Plastik kart üzrə kredit xətti (müddətin uzadılması şərti ilə)

Predmet:

4.1. Müqaviləyə görə, Bank Müştəriyə şəxsi ehtiyaclarının ödənilməsi məqsədi ilə məbləği, müddəti, faiz dərəcələri, komisyon haqqı məbləği və digər rekvizitləri Kredit sazişində müəyyən edilən həcmdə bərpa olunan kredit xətti açır.

4.2. Müqavilə üzrə istifadə edilmiş məbləğ kredit müddətində tamamən qaytarılmalıdır. Müştəri istifadə etdiyi məbləğ üzrə hesablanmış faizləri və əsas borcun (istifadə etdiyi məbləğin) həmin faizlər həcmində olan hissəsini hər növbəti ayın ilk 10 (on) günü ərzində Banka qaytarmalıdır. Həmin müddət ərzində hesablanmış faiz borcu tam ödənildikdə, əsas borcun tələb olunan hissəsi üçün növbəti ödəniş aralığının son gününədək güzəşt müəyyən olunur. Aylıq faiz borcunun ödənişi qeyd olunan qaydada davam etdiyi təqdirdə əsas borc üzrə güzəşt kredit müddətinin sonunadək davam edir. Faizlərin son ödənişi kreditin əsas məbləğinin son ödənişi ilə birlikdə həyata keçirilməlidir.

4.3. Xidmət şərtlərinin Xüsusi hissəsinin 4.2-ci bəndində qeyd edilən müddətdə Müştəri istifadə etdiyi məbləği tam olaraq qaytarmadıqda, kredit müddətinin növbəti dövrü üzrə (həmin müddət də Kredit sazişində qeyd edilir) illik faiz dərəcəsi Bank tərəfindən, Müştərinin əlavə razılığı alınmadan birtərəfli qaydada dəyişdirilir (Kredit sazişində qeyd edilir) və Kredit alanın borc münasibətləri yeni şərtlərlə davam etdirilir. Həmin dövrdə xətdən istifadə dayandırılır və Şərtlərin Xüsusi hissəsinin 4.2-ci bəndində qeyd edilən dövr ərzində ödənilməmiş borc məbləği tərtib olunacaq Ödəniş cədvəli əsasında (annuitet qaydada) Banka qaytarılmalıdır. Bu halda ödənilən məbləğ ilk olaraq

Müştərinin mövcud olan ödənilməmiş faiz və cərimə məbləğlərinin silinməsinə yonəldiləcək.

4.4. Müştəri Ödəniş cədvəlinin tərtib edilmə tarixindən sonrakı 3 (üç) iş günü ərzində onu əldə etmək üçün Banka müraciət etməlidir. Müştərinin Ödəniş cədvəlini əldə etmək üçün muraciət etməməsi onu Müqavilə üzrə göstərilən öhdəliklərin icrasından azad etmir və Müştəri Ödəniş cədvəlində göstərilən qaydada pul öhdəliklərini icra etməlidir.

Məsuliyyət:

4.5. Müştəri Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə ödənilməmiş əsas borc qalığı məbləğinə 180 (bir yüz səksən) gün müddətində, illik faiz dərəcəsinə 5 faiz bəndi əlavə edilməklə, hesablanan gecikdirilmə faizlərini Banka ödəyir. Bu bənddə müəyyən edilən həddə gecikdirilmə faizləri tətbiq edildikdə, müştəridən əlavə dəbbə pulu (cərimə, penya) və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz. Əgər Banka dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, Bank Müştəridən həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

4.6. Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə Bank tərəfindən qanunvericiliyin tələbləri nəzərə alınmaqla cərimə tətbiq edilərsə, Müştəri hər gecikdirilən gün üçün aşağıdakı qaydada Banka cərimə ödəyir:

4.6.1. kredit müddətinin ilk dövrü ərzində (Kredit sazişində qeyd edilir) ödəniş öhdəliyin vaxtında icra edilməməsinə görə hər təqvim ayının 11-dən başlayaraq növbəti 80 (səksən) gün ərzində aylıq tələb olunan əsas borcun 1 (bir) faizi məbləğində (kreditin valyutasından asılı olaraq 0,50 manatdan/ABŞ dollarından/Avrodan az olmamaq şərtilə);

4.6.2. kredit müddətinin növbəti dövrü ərzində (Kredit sazişində qeyd edilir) öhdəliklərin Ödəniş cədvəlinə əsasən vaxtında icra edilməməsinə görə 2 (iki) gündən sonra növbəti 88 (səksən səkkiz) gün ərzində gecikdirilmiş əsas borc məbləğinin 1 (bir) faizi həddində (kreditin valyutasından asılı olaraq, 0,50 manatdan/ABŞ dollarından/Avrodan az olmamaq şərtilə).

V. Bolkart

Predmet:

5.1. Müqaviləyə görə, Bank Müştəriyə Kredit sazişində göstərilən tarixədək satış və xidmət şəbəkələrində alınan malların və göstərilən xidmətlərin dəyərinin birbaşa alış zamanı ödənilməsi, Bankın müəyyən etdiyi dövrlərdə isə Banka və/və ya digər banklara aid POS-terminallar və bankomatlar vasitəsilə nağd pul vəsaitini məxaric etmək və digər formada nağdsız hesablaşmalar aparmaq məqsədilə bərpa olunan kredit xətti (bundan sonra "Kredit xətti") açır. Nağd pul vəsaitini məxaric etmə dövrləri və şərtləri, Bankın təklif etdiyi şərtlər əsasında, Bankla Müştəri arasında razılaşdırılmış qaydada həyata keçirilə bilər.

5.2. Kredit sazişində kredit xəttinin maksimal məbləği, xətdən ilkin olaraq istifadə edilməsi mümkün olan məbləğ, maksimal istifadə müddəti, həmçinin zəruri olan digər məlumatlar qeyd edilir. Kredit xəttinin istifadə edilməsi mümkün olan məbləğinin artırılması Müştərinin Banka müraciəti əsasında həyata keçirilə bilər. Məbləğin artırılması ilə bağlı məsələyə baxılarkən Müştərinin əvvəlki öhdəliklərini lazımınca icra etməsi, müsbət ödəmə tarixçəsinə malik olması, kredit xəttindən istifadə edilmə intensivliyi və digər bu kimi əsaslar nəzərə alınaraq Bank tərəfindən qərar qəbul edilir. Müştəri Müqavilə üzrə öhdəliklərini, habelə Bank qarşısında olan digər öhdəliklərini vaxtında və lazımınca icra etdikdə, Bank öz mülahizəsinə əsasən, kredit xətti məbləğinin artırılmasına razılığını bildirir. Eyni zamanda, Bank Şərtlərin ümumi hissəsinin 5.13 və 7.1.7-ci bəndlərində göstərilən qaydada kredit xəttinin istifadə edilməsi mümkün olan məbləğini birtərəfli qaydada azalda bilər.

5.3. Müqavilə üzrə kredit xəttinin açılması, həmçinin Şərtlərin xüsusi hissəsinin 5.2-ci bəndinə əsasən ilkin və gələcəkdə artırılan istifadə məbləğlərinin müəyyən edilməsi Bank tərəfindən həmin məbləğlərdə kreditin mütləq verilməsi vədini ifadə etmir. Müştəri kreditdən istifadə etmək barədə niyyətini bildirdikdə, niyyət Bank tərəfindən təhlil olunur və təhlilin nəticələrindən asılı olaraq kreditin verilib-verilməməsi (xətdən istifadə) barədə müvafiq qərar qəbul olunur.

5.4. Bazar tələblərinə uyğun olaraq və müştəri məmnuniyyətinin artırılması məqsədi ilə Müqavilənin qüvvədə olduğu müddət ərzində müxtəlif satış və xidmət şəbəkələrində nağdsız hesablaşma və POS-terminal və bankomatlar vasitəsilə nağd pul vəsaitinin məxaric edilməsi zamanı kredit xəttindən istifadə ilə bağlı xidmət tarifləri və şərtləri dəyişdirilə bilər. Müştəri kredit xəttindən hər bir istifadə zamanı konkret satış və xidmət şəbəkəsində (həmçinin POS-terminal və bankomat vasitəsi ilə pul vəsaitinin məxaric edilməsi zamanı) aparılacaq əməliyyat üzrə tətbiq ediləcək tarifləri Bankla və ya həmin satış və xidmət şəbəkəsi ilə dəqiqləşdirməlidir. Qeyd edilən komisyon haqların məbləği, tutulma şərtləri, müddətləri, borcun geri ödənilməsi şərtləri və digər zəruri məlumatları Bankın cari xidmət tarifləri və şərtlərində, www.bolkart.az internet saytı və/və ya digər məlumat daşıyıcılarında göstərilir. Müştəri kredit xəttindən istifadə etməklə tətbiq edilən xidmət tarifləri və şərtləri ilə tanış olduğunu təsdiq edir və aparılmış əməliyyatlar üzrə tətbiq edilən tariflər üzrə Bank qarşısında öhdəlik daşıdığını qəbul edir.

5.5. Müştəri "Bolkart layihəsi"nə qoşulmuş satış və xidmət şəbəkələrində malların və xidmətlərin dəyərinin ödənilməsi məqsədi ilə kredit xəttindən istifadə edərkən, bəzi xidmət müəssisələrində malın satış qiymətindən (xidmətlərin dəyərindən və s.) fərqli qiymət tətbiq edilə bilər, bəzi xidmət müəssisələrində

isə mal (xidmət) öz qiyməti ilə satılsa da, Bank tərəfindən Müştəridən əlavə komisyon haqq tutula bilər. Qeyd edilən xidmət şəbəkələrinin siyahısı və komisyon haqların (həmçinin Bankın xidmət tariflərinə əsasən digər şərtlərin) konkret məbləği və tutulma qaydası Bankın cari xidmət tarifləri və şərtlərində, www.bolkart.az internet saytı və/və ya digər məlumat daşıyıcılarında göstərilir. Qeyd edilən bütün hallarda Müştəri malın alınması (xidmətin dəyərinin ödənilməsi və s.) üçün çəkəcəyi xərci barədə müvafiq xidmət şəbəkəsindən dəqiq məlumat ala bilər.

5.6. Nağdlaşdırma hallarında komisyon haqqın, həmçinin Şərtlərin xüsusi hissəsinin 5.5-ci bəndinə əsasən əlavə komisyon haqqın Bank tərəfindən Müştəridən tutulduğu hallarda kredit xəttindən kənar istifadə (overdraft) ola bilər. Bu zaman Müştərinin Bank qarşısındakı pul öhdəliyi həmin kənar istifadə nəticəsində yaranmış öhdəliyi də əhatə edəcək.

Kredit xəttindən istifadə və ödəniş qaydaları:

5.7. Bu Müqavilə üzrə ayrılmış kredit xətti daxilində "Bolkart layihəsi"nə qoşulmuş satış və xidmət şəbəkələrində istifadə edilmiş hər bir məbləğ, istifadə zamanı seçilmiş ödəniş növünə uyğun olaraq müəyyən edilən *(1 (bir), 3 (üç), 6 (altı), 12 (on iki) və ya digər)* aylar ərzində (bundan sonra "Öhdəliklərin icra müddət(lər)i") Müştəri tərəfindən Banka geri ödənilməlidir. Bank tərəfindən müəyyən edilən hallarda fərqli ödəniş növləri (müddətləri) müəyyənləşdirilə bilər ki, bu barədə Bank Müştərini fərdi və/və ya kütləvi məlumatlandırma vasitələri ilə məlumatlandıra bilər.

5.8. Seçilmiş ödəniş növü ilə (1 (bir) aylıq ödəniş növü istisna olmaqla) istifadə edilmiş məbləğ(lər), əgər Bank tərəfindən həyata keçirilən kampaniyalar çərçivəsində güzəşt müddəti müəyyən edilmişdirsə, kredit xəttindən istifadə edilmə tarixindən başlayaraq müvafiq olaraq, istifadə zamanı seçilmiş ödəniş növünə uyğun aylar ərzində, Kredit sazişində razılaşdırılmış müvafiq tarix aralığında bərabər hissələrlə olmaqla, Müştəri tərəfindən Banka geri ödənilməlidir. Bank tərəfindən fərqli ödəniş növləri (müddətləri) müəyyənləşdirilən hallarda istifadə edilmiş məbləğ müəyyən edilən ayların sayına uyğun bərabər hissələrə bölünərək Kredit sazişində razılaşdırılmış müvafiq tarix aralığında (güzəşt müddətinin müəyyənləşdirildiyi müvafiq aydan başlayaraq) Müştəri tərəfindən Banka geri ödənilməlidir. Kredit xətti müddətinin bitməsindən asılı olmayaraq, kredit xəttinin qüvvədə olduğu dövr ərzində istifadə edilmiş məbləğlərin geri ödənilməsi seçilmiş ödəniş növünə uyğun olaraq davam etdirilməlidir.

5.8.1. Razılaşdırılmış tarix aralığında aylıq ödəniş həyata keçirilmədikdə, Müqavilənin şərtlərinə uyğun olaraq öhdəliyin icra olunmaması kimi başa düşülür və gecikdirilmiş kredit yaranır.

5.9. 1 (bir) aylıq ödəniş növü ilə nağdsız hesablaşma nəticəsində, həmçinin bankomat və POS-terminallar vasitəsi ilə vəsaitin nağdlaşdırılması nəticəsində yaranmış kredit borcları aşağıdakı qaydada Müştəri tərəfindən Banka geri ödənilməlidir.

5.9.1. Bank tərəfindən güzəşt müddəti tətbiq edilməyən əməliyyatlar nəticəsində yaranmış borc məbləğlərinə, tərəflər arasında Kredit sazişi ilə ayrı qayda müəyyənləşdirilməmişdirsə, borcun yarandığı tarixdən sonrakı gündən etibarən Kredit sazişində razılaşdırılmış həcmdə faiz hesablanır. Hesablanmış faizlər Kredit sazişində razılaşdırılmış ilk tarix aralığında (sonuncu gün daxil olmaqla) mütləq ödənilməlidir. Qeyd edilən tarix aralığında əsas borc məbləği tam olaraq geri ödənilmədikdə, ödəniş üzrə növbəti tarix aralığından etibarən həmin anadək hesablanmış faiz məbləğləri ilə bərabər, həmçinin yaranmış əsas borc məbləğinin, Bank tərəfindən ayrı qayda nəzərdə tutulmamışdırsa, ən azı 1/24 və ya Bank tərəfindən müəyyən edilən digər nisbətdə olan hissəsi Müştəri tərəfindən Banka geri ödənilməlidir. Faizlərin hesablanması ümumi borc məbləği tam ödənilənədək aparılır.

5.9.2. Bank tərəfindən güzəşt müddəti tətbiq edilən əməliyyatlar nəticəsində yaranmış borc məbləğlərinə, tərəflər arasında Kredit Sazişi ilə ayrı qayda müəyyənləşdirilməmişdirsə, əməliyyatın icra edildiyi tarixdən başlayaraq, həmin tarixdən sonrakı ikinci ödəniş aralığınadək olan müddət ərzində faizlərin hesablanması üzrə güzəşt müəyyən edilir (güzəşt müddəti verilən əməliyyatlar barədə məlumat "www.bankofbaku.com" və/və ya "www.bolkart.az" internet sayt(lar)ında göstərilir, yaxud digər formada Müştəriyə çatdırılır). Güzəşt müddəti tətbiq edilən əməliyyat nəticəsində yaranmış və ödənilməli olan əsas borc məbləği həmin müddət ərzində tam hissədə Banka geri ödənilmədikdə (bu halda Kredit sazişi ilə razılaşdırılmış ödəniş tarixi aralığı tətbiq edilmir), qalıq məbləğə faizlər Kredit sazişi ilə razılaşdırılmış həcmdə, əməliyyatın icra edildiyi tarixdən sonrakı gündən başlayaraq hesablanmaqla, Müştəridən tələb edilir. Güzəşt müddətindən sonrakı ilk əməliyyat günündən etibarən Müştərinin, hesablanmış faiz məbləğləri ilə bərabər, yaranmış əsas borc məbləğinin Bank tərəfindən ayrı qayda nəzərdə tutulmamışdırsa, ən azı 1/24 (1/36) və ya Bank tərəfindən müəyyən edilən digər nisbətdə olan hissəsini Banka geri ödəmək öhdəliyi yaranır. Faizlərin hesablanması ümumi borc məbləği tam ödənilənədək aparılır.

5.9.3. Kredit xəttinin aktiv olduğu dövrdə istifadə edilmiş məbləğlərin ödənilməsi kredit xəttinin müddətinin bitməsindən asılı olmayaraq razılaşdırılmış müddət ərzində davam etdirilir. Kredit sazişində göstərilən ödəniş müddəti kredit xəttindən növbəti istifadələr zamanı Bank tərəfindən birtərəfli qaydada dəyişdirilə bilər və borc məbləğlərinin geri ödənilməsi üzrə fərqli ödəniş müddətləri müəyyən edilə bilər. Bu

yarımbənddə göstərilən müddətlərin dəyişdirilməsi qaydası və tətbiq ediləcək qaydalar barədə məlumat Bankın cari xidmət tarifləri və şərtlərində, www.bolkart.az internet saytında göstərilir. Həmin məlumatlar müştərilərə digər məlumat daşıyıcılarında da təqdim edilə bilər. Müştəri kredit xəttindən istifadə etməklə tətbiq edilən müddətlə tanış olduğunu təsdiq edir və aparılmış əməliyyatlar üçün tətbiq edilən şərtlər üzrə Bank qarşısında öhdəlik daşıdığını qəbul edir.

5.9.4. Kredit sazişində razılaşdırıldığı halda Şərtlərin xüsusi hissəsinin 5.9.1 və 5.9.2-ci yarımbəndlərində göstərilmiş əməliyyatların icrası zamanı Müştəri tərəfindən Banka, tərəflər arasında razılaşdırılmış həcmdə komisyon haqqın ödənilməsi nəzərdə tutula bilər. Hər bir halda komisyon haqqın məbləği Bank tərəfindən müəyyən olunur və bu barədə Bank Müştərini fərdi və/və ya kütləvi məlumatlandırma vasitələri ilə əvvəlcədən məlumatlandırır.

5.9.5. Hesablanmış faizlər və yaranmış əsas borc məbləğinin müvafiq hissəsi Şərtlərin xüsusi hissəsinin 5.9.1 və 5.9.2-ci yarımbəndlərinə uyğun olaraq müəyyən edilmiş ödəniş aralıqlarında ödənilmədikdə, bu Müqavilənin şərtlərinə uyğun olaraq öhdəliyin icra olunmaması kimi başa düşülür və gecikdirilmiş kredit yaranır.

5.10. Tərəflər, Bank tərəfindən təklif edildiyi halda, Şərtlərin xüsusi hissəsinin 5.9-cu bəndində göstərilən hesablaşmalar zamanı 1 (bir) aylıq ödəniş növündən fərqli ödəniş növlərini (3 (üç), 6 (altı), 12 (on iki) aylıq və ya digər) razılaşdıra bilərlər. Fərqli ödəniş növünün razılaşdırılması qaydası və tətbiq ediləcək xidmət tarifləri barədə məlumat Bankın cari xidmət tarifləri və şərtlərində, www.bolkart.az internet saytı və/və ya digər məlumat daşıyıcılarında göstərilir.

5.11. Müqavilə üzrə ödənişin həyata keçirilməsi qaydası istifadə edilmiş hər bir kredit məbləğinə münasibətdə fərdi qaydada tətbiq edilir.

5.12. Kredit xəttindən istifadə edilməsi, Müştəriyə xətt üzrə əlavə xidmətlərin göstərilməsi və digər əsaslar üzrə Bank Müştəridən illik ümumi məbləği 150 (bir yüz əlli) manatdan (və ya onun digər növ valyutada ekvivalentindən) çox olmayan komisyon haqq tuta bilər. Qeyd edilən komisyon haqların məbləği, tutulma qaydası, müddətləri və digər şərtləri Kredit sazişində və/və ya Bankın cari xidmət tarifləri və şərtlərində, www.bolkart.az internet saytı və/və ya digər məlumat daşıyıcılarında göstərilir. Kredit xəttinin ləğv edilməsi tarixindən asılı olmayaraq Müştəri tərəfindən ödənilmiş komisyon haqlar Müştəriyə geri qaytarılmır.

5.13. Şərtlərin xüsusi hissəsinin 5.1. və 5.10-cu bəndlərində qeyd edilən, digər banklara aid POS-terminallar və Banka və/və ya digər banklara aid bankomatlar vasitəsi ilə əməliyyatların aparılması Bank tərəfindən müəyən edilən dövrlərdə mümkün olur və həmin dövrlər, həmçinin tətbiq ediləcək tarif və şərtlər barədə Bank tərəfindən Müştəriyə www.bolkart.az internet saytı, fərdi və ya kütləvi məlumatlandırma vasitələri ilə məlumat verilir.

5.14. Digər banklara aid POS-terminallar vasitəsi ilə ödəniş əməliyyatlarının aparılmasına görə Bank tərəfindən əlavə xidmət haqları tutula bilər.

5.15. Müqavilə üzrə Müştəri tərəfindən geri ödənilən məbləğlər aşağıda göstərilən ardıcıllıqla Müqavilə üzrə yaranmış kredit borclarının silinməsinə yönəldilir:

a) Hesablanmış gecikdirilmə faizləri, cərimələr;
b) Ödəniş dövründə ödənilməli olan faizlər/komisyon haqları;
c) Vəsaitin nağdlaşdırılması və həmçinin 1 aylıq ödəniş üzrə nağdsız əməliyyatlar nəticəsində gecikən kredit borcunun ödənilməsi;
d) Hissəvi ödəniş əməliyyatları (3 , 6 , 12 və ya digər) üzrə gecikən kredit borcunun ödənilməsi;
e) Vəsaitin nağdlaşdırılması və həmçinin 1 aylıq ödəniş üzrə nağdsız əməliyyatlar nəticəsində yaranmış (hissələrə bölünmüş) kredit borcunun ödənilməsi mütləq olan hissəsi (1/24, 1/36 və ya Bank tərəfindən müəyyən edilən digər nisbətdə olan hissə);
f) Vəsaitin nağdlaşdırılması və həmçinin 1 aylıq ödəniş üzrə nağdsız əməliyyatlar nəticəsində yaranmış (hissələrə bölünmüş) kredit borcunun ödənilməsi mütləq olan hissəsi (1/24, 1/36 və ya Bank tərəfindən müəyyən edilən digər nisbətdə olan hissə);
g) Ödəniş dövründə ödənilməsi mütləq olmayan, hesablanmış komisyon haqları və faizlərin ödənişi;
h) Vəsaitin nağdlaşdırılması və həmçinin 1 aylıq ödəniş üzrə nağdsız əməliyyatlar nəticəsində yaranmış (aylara bölünmüş) kredit borcları üzrə ödənilməsi mütləq olmayan hissələrin ödənişi;
i) Vəsaitin nağdlaşdırılması və həmçinin 1 aylıq ödəniş üzrə nağdsız əməliyyatlar nəticəsində daha əvvəlki tarixdə istifadə olunmuş və hissələrə bölünməmiş (1/24, 1/36 və ya Bank tərəfindən müəyyən edilən digər nisbətdə olan hissəyə) və güzəşt müddəti verilən məbləğlər üzrə əsas borc məbləğlərinin ödənilməsi;
j) Hissəvi ödəniş əməliyyatları (3, 6, 12 və ya digər) üzrə yaranmış və razılaşdırılmış ödəniş aralığı çatmamış kredit borcları üzrə əsas məbləğin ödənilməsi.

Bank yuxarıda qeyd edilən silinmə ardıcıllığından fərqli qayda müəyyən edə bilər. Bank tərəfindən fərqli qayda tətbiq edildiyi halda, bu barədə məlumat www.bankofbaku.com internet saytında göstərilir və ya digər formada Müştəriyə çatdırılır.

Kartın verilməsi və istifadə edilməsi:

5.16. Kredit xəttindən ilkin istifadə müddəti kartdan istifadə müddəti ilə (kartın üzərində göstərilir) məhdudlaşır və xətdən istifadə müddətinin artırılması, Bank tərəfindən ayrı qayda müəyyən edilməyəcəyi halda, Müştərinin həmin ana olan cari borcunu tam

bağlaması şərtilə, Bank tərəfindən öz mülahizəsinə uyğun olaraq birtərəfli qaydada həyata keçirilir. İstifadə müddətində kart Bankın mülkiyyəti sayılır və istifadə müddətindən sonra Bank kartı geri tələb edə bilər.

5.17. Xüsusi hissənin 5.16-cı bəndində göstərilən xətdən istifadə müddətinin artırılması Bank tərəfindən yeni kartın təqdim edilməsi yolu ilə həyata keçiriləcək. Yeni kart təqdim edilərkən Müştəridən Bankın kartın əldə edilmə tarixinə cari xidmət tarifləri və şərtləri ilə müəyyən edilən xidmət haqqının ödənilməsi tələb edilə bilər.

5.18. Müştəri tərəfindən Bank qarşısında olan kredit öhdəlikləri icra edilmədikdə Bank Şərtlərin ümumi hissəsinin 5.14-cü bəndində göstərilən qaydada Müştərinin kartını bloklaşdıra bilər. Qeyd edilən məhdudlaşdırıcı tədbirlər həmçinin Müştərinin Bank qarşısında olan digər müqavilələr üzrə borc öhdəliklərinin gecikdirilməsi halında da tətbiq edilə bilər.

5.19. Bank tərəfindən təklif edildiyi halda, tərəflər əvvəlcədən razılaşdırdıqları ödəniş tarixlərindən fərqli ödəniş tarixlərini (tarix aralıqlarını) razılaşdıra bilərlər. Bu zaman razılaşdırılmış ödəniş tarixi, əgər tərəflər arasında ayrı qayda müəyyən edilməmişdirsə, Müştəri tərəfindən istifadə edilmiş bütün kredit məbləğlərinə münasibətdə tətbiq ediləcək. Bu bənd üzrə fərqli ödəniş tarixinin razılaşdırılması qaydası barədə məlumat www.bolkart.az internet saytı və/və ya digər məlumat daşıyıcılarında göstərilir. Ödəniş tarixlərinin dəyişdirilməsi ilə bağlı Müştəridən Bankın müəyyən etdiyi həcmdə xidmət haqlarının ödənilməsi tələb edilə bilər. Ödəniləcək xidmət haqlarının həcmi və ödənilmə qaydası barədə məlumat Bankın cari xidmət tarifləri və şərtlərində, www.bolkart.az internet saytında göstərilir və/və ya digər formada Müştəriyə çatdırılır.

5.20. Şərtlərin Xüsusi hissəsinin 5.19-cu bəndi ilə müəyyən edilmiş qaydada tərəflər arasında fərqli ödəniş tarixləri (tarix aralıqları) razılaşdırıldığı təqdirdə, gecikmələrlə bağlı müddətlər də seçilmiş ödəniş tarixlərinə müvafiq olaraq dəyişdirilir.

5.21. Müştərinin ərizəsi (sifarişi) əsasında, Bank digər şəxs(lər)in (bundan sonra "Əlavə kart istifadəçisi") adına, şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməklə kart hesabı üzrə əlavə kart verə bilər. Bank Müştərinin bununla bağlı sifarişini aldıqdan sonra onun icrasının mümkünlüyünü, özünün texnoloji imkanları və daxili korporativ aktları əsasında müəyyənləşdirir və sifarişin icrası mümkün olduqda, Müştərinin müraciətini təmin edir. Əlavə kart istifadəçisi kart hesabının sahibi olmur və yalnız bu Müqavilə üzrə kart hesabı vasitəsilə əməliyyatlar aparmaq hüququna malikdir. Əlavə kartın istifadəsi üzrə əsas kartdan fərqli (məhdudlaşdırıcı) şərtlər müəyyən edilə bilər. Həmin şərtlər Bankın təklif etdiyi meyarlar çərçivəsində, Bank, Müştəri və Əlavə kart istifadəçisi arasında ayrıca razılaşdırılır. Əlavə kartdan istifadə nəticəsində Bank qarşısında yaranmış bütün borc öhdəliyinə görə Müştəri məsuliyyət daşıyır.

Bonus ballarının (kəşbəkin) təqdim edilməsi və onlardan istifadə:

5.22. Müştərilər tərəfindən kredit xəttindən istifadə edilməklə bəzi ödənişlərin aparılması zamanı Bank tərəfindən Müştəriyə bonus ballarının (kəşbəkin) və/və ya endirimlərin təqdim edilməsi nəzərdə tutula bilər.

5.23. Bonus ballarının (kəşbəkin) təqdim edilməsi Bankın hüququdur və Bank bonus ballarının (kəşbəkin) həcmini, onlardan istifadə müddətlərini və qaydasını müəyyən etməkdə sərbəstdir. Hesablanacaq bonus ballarının (kəşbəkin) həcmi, onlardan istifadə qaydaları və müddətləri və digər zəruri məlumatlar Bankın xidmət tarifləri və şərtlərində və "www.bolkart.az" internet saytında göstərilir. Həmin məlumatlar müştərilərə digər məlumat daşıyıcılarında da təqdim edilə bilər. Müştəri kredit xəttindən istifadə etməklə tətbiq edilən xidmət tarifləri və şərtləri ilə tanış olduğunu və onları qəbul etdiyini təsdiq edir.

5.24. Bonus balları (kəşbək) ilə hesablaşma (ödəniş əməliyyatı) aparılan zaman Müştəriyə həmin əməliyyata görə yenidən bonus ballarının (kəşbəkin) təqdim edilməsi nəzərdə tutulmur.

5.25. Bonus balı (kəşbək) hesablanmış ödəniş əməliyyatı sonradan hər hansı səbəbdən ləğv edilərsə və/və ya geri qaytarılarsa (yəni, kart üzrə "reversal" və/və ya "refund" əməliyyat(lar)ı aparılarsa), Bank hesablanmış bonus balına (kəşbəkə) mütənasib həcmdə məbləği həmin bonus balının (kəşbəkin) köçürüldüyü hesabdan silir (akseptsiz qaydada tutur). Qeyd olunan hesabda yetərli məbləğdə vəsait olmadıqda, Bank müvafiq məbləği Müştərinin Bankda olan cari hesabından akseptsiz qaydada tutur və/və ya bunun üçün hesabda mənfi qalıq (texniki overdraft) yaradır.

Şəxsi vəsaitlərin kart hesabına mədaxil edilməsi və onlardan istifadə:

5.26. Bu Müqavilə üzrə Bank qarşısında kredit öhdəliyinin olmaması şərtilə, Müştəri kartdan istifadə müddətində kart hesabına şəxsi pul vəsaitlərini mədaxil edə və onlardan istifadə edə bilər.

5.27. Müştərinin kart hesabına mədaxil edilmiş şəxsi vəsaitlər vasitəsi ilə satış və xidmət şəbəkələrində malların alınması və göstərilən xidmətlərin dəyərinin ödənilməsi zamanı Bank tərəfindən Şərtlərin xüsusi hissəsinin 5.22 – 5.23-cü bəndləri ilə müəyyən edilən bonus ballarının (kəşbəkin) təqdim edilməsi nəzərdə tutula bilər. Bank tərəfindən müəyyən edildiyi hallarda həmçinin həmin pul vəsaitlərinin kart hesabında olduğu dövr üçün Müştəriyə faizlərin ödənilməsi də nəzərdə tutula bilər.

5.28. Kart hesabında Müştərinin şəxsi pul vəsaiti olduğu zaman istifadə edilmiş məbləğ Müştəri tərəfindən müvafiq xidmət və satış şəbəkəsində seçilmiş ödəniş növünə uyğun olaraq qəbul edilir.

Məsuliyyət:

5.29. Müştəri Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə ödənilməmiş əsas borc qalığı məbləğinə 180 (bir yüz səksən) gün müddətində, illik faiz dərəcəsinə 5 faiz bəndi əlavə edilməklə, hesablanan gecikdirilmə faizlərini Banka ödəyir. Bu bənddə müəyyən edilən həddə gecikdirilmə faizləri tətbiq edildikdə, müştəridən əlavə dəbbə pulu (cərimə, penya) və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz. Əgər Banka dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, Bank Müştəridən həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

5.30. Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə Bank tərəfindən qanunvericiliyin tələbləri nəzərə alınmaqla cərimə tətbiq edilərsə, Müştəri Kredit sazişində razılaşdırılmış ödəniş aralığının (Xüsusi hissənin 5.20-ci bəndi ilə müəyyən edilmiş şərt nəzərə alınmaqla) birinci günündən sonuncu gününədək olan müddət ərzində ona verilmiş möhlət müddəti istisna olmaqla, ödəniş aralığının birinci günündən başlayan 90 (doxsan) günlük müddət ərzində, ödənişin hər gecikdirildiyi gün üçün gecikdirilmiş əsas borc məbləğinin 1 (bir) faizi həddində, ümumilikdə hər gün üçün kreditin valyutasından asılı olaraq 0,50 manatdan/ABŞ dollarından/Avrodan az olmamaq şərtilə Banka cərimə ödəyir.

Müddət və qüvvədə olma şərtləri:

5.31. Müqavilə, Kredit sazişi Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalandığı andan qüvvəyə minir və Kredit sazişində konkret müddət müəyyən edilməyibsə, öhdəliklər tam icra olunanadək qüvvədə qalır.

5.32. Bank Müştərini 15 (on beş) gün əvvəlcədən xəbərdarlıq etməklə Müqaviləyə birtərəfli qaydada xitam verə bilər.

5.33. Müqavilənin müddətinin bitməsi və ya onun hər hansı səbəbdən qüvvədən düşməsi Müqavilə çərçivəsində kredit xəttindən istifadə edilmiş məbləğlər üzrə Müştərinin ödəmə öhdəliyinin ləğv edilməsinə səbəb olmur. Müqavilə həmin hissədə, xətt daxilində istifadə edilmiş bütün məbləğlər üzrə öhdəliklər tam icra edilənədək qüvvədədir.

Digər:

5.34. Bank Müştərinin xeyrinə kredit xəttindən istifadə, kredit ödənişi və digər əsaslar üzrə xüsusi bonuslar hesablaya bilər. Bonusların hesablanma dövrləri, məbləğləri və digər şərtləri Bank tərəfindən müəyyən edilir. Həmin bonuslar barədə ətraflı məlumat www.bolkart.az və/və ya www.bankofbaku.com internet sayt(lar)ında yerləşdirilə, yaxud Müştəriyə digər formada çatdırıla bilər.

VI. Qızıl kartı

Predmet:

6.1. Müqaviləyə görə, Bank Müştəriyə bu Şərtlər və Kredit sazişində müəyyən edilən şərtlərlə bərpa olunan kredit xətti (bundan sonra "kredit xətti") açır.

6.2. Kredit sazişində kredit xəttinin məbləği, faiz dərəcəsi, istifadə müddəti və digər şərtləri qeyd edilir. Kredit xəttinin məbləğinin artırılması həm Müştərinin Banka müraciəti əsasında, həm də Bank tərəfindən birtərəfli qaydada həyata keçirilə bilər. Hər bir konkret hal üzrə məbləğin artırılması ilə bağlı məsələyə baxılarkən, Müqavilə üzrə mövcud təminatın və/və ya Müştərinin təqdim etdiyi əlavə təminatın dəyəri, Müştərinin kredit öhdəliklərini lazımınca icra etməsi, müsbət ödəmə tarixçəsinə malik olması, kredit xəttindən istifadə edilmə intensivliyi və digər bu kimi əsaslar nəzərə alınaraq, Bank tərəfindən qərar qəbul edilir. Müqavilə üzrə mövcud təminatın və/və ya Müştərinin təqdim etdiyi əlavə təminatın dəyəri Bank tərəfindən bu məhsul üzrə müəyyən edilmiş kreditin təminata olan nisbəti (KTN) əmsalına uyğun hesab edildikdə və Müştəri Bank qarşısında olan öhdəliklərini vaxtında və lazımınca icra etdikdə, Bank öz mülahizəsinə əsasən kredit xəttinin məbləğinin artırılmasına razılığını bildirir. Kredit xəttinin məbləğinin Bank tərəfindən birtərəfli qaydada artırılması halında Müştəriyə fərdi məlumatlandırma vasitəs(lər)i (SMS, mobil tətbiq üzərindən bildiriş və s.) ilə məlumat verilir. Məlumat göndərildiyi andan etibarən 3 (üç) iş günü ərzində Müştəri tərəfindən hər hansı etiraz daxil olmadıqda, onun məbləğ artımına razı olduğu qəbul edilir və kredit xəttinin məbləği müvafiq həcmdə artırılır. Məbləğin artırılmasına etiraz edildiyi təqdirdə, Müştəri Banka müraciət etməlidir. Eyni zamanda, Şərtlərin xüsusi hissəsinin 6.13-cü bəndində göstərilən hallarda, habelə girov predmetinin Müqavilə üzrə müəyyən olunmuş dəyəri azaldıqda, Bank kredit xəttinin məbləğini birtərəfli qaydada azalda bilər. Kredit xəttinin məbləğinin azaldılması Müştərinin Banka müraciəti əsasında da aparıla bilər.

Kredit xəttindən istifadə və ödəniş qaydaları:

6.3. Müqavilə üzrə ayrılmış kredit xətti daxilində istifadə edilmiş məbləğ(lər) Müştəri tərəfindən seçilmiş ödəniş növünə (3 (üç), 6 (altı), 12 (on iki) və ya digər) uyğun müəyyən edilən aylar ərzində (bundan sonra "öhdəliklərin icra müddəti") Banka geri ödənilməlidir. Ödəniş növü Müştəri tərəfindən Müqavilə üzrə kredit kartı ona Bank tərəfindən təqdim olunarkən seçilir. Bank tərəfindən fərqli qayda müəyyən edilməmişdirsə, Müştəri seçilmiş ödəniş növünü sonradan başqa ödəniş növünə dəyişdirə bilməz.

6.4. Kredit xətti üzrə vəsaitin nağdlaşdırılması və/və ya nağdsız əməliyyatların (o cümlədən, elektron ticarət əməliyyatlarının) aparılması nəticəsində yaranmış borc məbləğ(lər)inə, Bank tərəfindən güzəşt (möhlət) müddəti tətbiq edilmədən, borcun yarandığı tarixdən sonrakı ilk təqvim günündən etibarən Tərəflər

arasında Kredit sazişində razılaşdırılmış həcmdə gündəlik faiz hesablanır. Faizlərin hesablanması kredit xətti üzrə əsas borc tam ödənilənədək aparılır.

6.5. Müqavilə üzrə öhdəliklərin icra müddəti ərzində istifadə olunmuş məbləğin hər ay (Kredit sazişində razılaşdırılmış ödəniş tarixi aralığında) ən azı 1 / seçilmiş ödəniş növü üzrə ayların sayına uyğun olaraq 3, 6, 12 və ya digər aylıq hissəsi, ödəniş tarixinə hesablanmış faizlər ilə birlikdə Banka geri ödənilməlidir. Kredit kartının müddətinin bitməsindən asılı olmayaraq, kredit xəttinin qüvvədə olduğu dövr ərzində istifadə edilmiş məbləğ(lər)in geri ödənilməsi seçilmiş ödəniş növünə uyğun olaraq davam etdirilməlidir.

6.6. Kredit xəttindən istifadə edilməsi zamanı Müştəriyə xətt üzrə əlavə xidmətlərin göstərilməsi və digər əsaslar üzrə Bank Müştəridən komisyon haqq tuta bilər. Qeyd edilən komisyon haqların məbləği, tutulma şərtləri, müddətləri və s. Kredit sazişində və/və ya Bankın cari xidmət tarifləri və şərtlərində ("www.bankofbaku.com" internet saytında) göstərilir, yaxud digər formada (kommunikasiya vasitələri ilə) Müştəriyə bildirilir. Kredit xəttinin ləğv edilməsi tarixindən asılı olmayaraq, Müştəri tərəfindən ödənilmiş komisyon haqlar ona geri qaytarılmır.

6.7. Bu Şərtlərin xüsusi hissəsinin 6.6-cı bəndinə əsasən komisyon haqqın Bank tərəfindən Müştəridən tutulduğu hallarda kredit xəttindən kənar istifadə (overdraft) ola bilər. Bu zaman Müştərinin Bank qarşısındakı pul öhdəliyi həmin kənar istifadə nəticəsində yaranmış öhdəliyi də əhatə edəcək.

6.8. Bank kredit xətti üzrə xidmət tarifləri və şərtlərini, o cümlədən kart üzrə nağdlaşdırma şərtlərini ətraflı şəkildə "www.bankofbaku.com" internet saytında yerləşdirir və/və ya münasib bildiyi digər formada (kommunikasiya vasitələri ilə) Müştəriyə bildirir. Müştəri kredit xəttindən istifadə etməklə Bankın xidmət tarifləri və şərtləri ilə tanış olduğunu təsdiq edir və aparılmış əməliyyatlara görə tətbiq edilən tariflər üzrə Bank qarşısında öhdəlik daşıdığını qəbul edir.

6.9. Müqavilə üzrə Müştəri tərəfindən geri ödənilən məbləğlər aşağıda göstərilən ardıcıllıqla Müqavilə üzrə yaranmış kredit borclarının silinməsinə yönəldilir:

a) hesablanmış gecikdirilmə faizlərinin, cərimələrin;

b) ödəniş dövründə ödənilməli olan faizlərin/komisyon haqların;

c) "Bank of Baku" ASC-nin Prosessinq Mərkəzində xidmət olunan bankomat və POS-terminallar vasitəsilə nağdsız hesablaşma nəticəsində yaranmış kredit borcunun ödəniş dövründə ödənilməsi mütləq olan hissəsinin;

d) "MilliKart" Prosessinq Mərkəzində xidmət olunan bankomat və POS-terminallar vasitəsilə nağdsız hesablaşma nəticəsində yaranmış kredit borcunun ödəniş dövründə ödənilməsi mütləq olan hissəsinin;

e) digər prosessinq mərkəz(lər)ində xidmət olunan bankomat və POS-terminallar vasitəsilə nağdsız hesablaşma nəticəsində yaranmış kredit borcunun ödəniş dövründə ödənilməsi mütləq olan hissəsinin;

f) vəsaitin nağdlaşdırılması nəticəsində yaranmış kredit borcunun ödəniş dövründə ödənilməsi mütləq olan hissəsinin;

g) ödəniş dövründə ödənilməsi mütləq olmayan, hesablanmış komisyon haqların;

h) nağdsız hesablaşma nəticəsində yaranmış kredit borcları üzrə ödəniş dövründə ödənilməsi mütləq olmayan hissələrin;

i) vəsaitin nağdlaşdırılması nəticəsində yaranmış kredit borcları üzrə ödəniş dövründə ödənilməsi mütləq olmayan hissələrin;

j) aylıq ödəniş növündən istifadə edilməklə yaranmış və razılaşdırılmış ödəniş aralığı çatmamış kredit borcları üzrə əsas məbləğin.

Bank yuxarıda qeyd edilən silinmə ardıcıllığından fərqli qayda müəyyən edə bilər. Bank tərəfindən fərqli qayda tətbiq edildiyi halda, bu barədə məlumat "www.bankofbaku.com" internet saytında göstərilir və ya digər formada Müştəriyə çatdırılır.

6.10. Kredit sazişində razılaşdırılmış ödəniş tarixi aralığında aylıq ödəniş (hesablanmış faizlər və yaranmış əsas borc məbləğinin müvafiq hissəsi) həyata keçirilmədikdə, Müqavilənin şərtlərinə uyğun olaraq öhdəliyin icra olunmaması kimi başa düşülür və gecikdirilmiş kredit yaranır.

Kartın verilməsi və istifadə edilməsi:

6.11. Kredit xəttindən ilkin istifadə müddəti kartdan istifadə müddəti ilə (kartın üzərində göstərilir) məhdudlaşır və xətdən istifadə müddətinin artırılması, Bank tərəfindən ayrı qayda müəyyən edilməyəcəyi halda, Müştərinin həmin ana olan cari borcunu tam bağlaması şərti ilə Bank tərəfindən öz mülahizəsinə uyğun olaraq birtərəfli qaydada həyata keçirilir. İstifadə müddətində kart Bankın mülkiyyəti sayılır və istifadə müddətindən sonra Bank kartı geri tələb edə bilər.

6.12. Bu Şərtlərin xüsusi hissəsinin 6.11-ci bəndində göstərilən, xətdən istifadə müddətinin artırılması Bank tərəfindən yeni kartın təqdim edilməsi yolu ilə həyata keçiriləcək. Yeni kart təqdim edilərkən Müştəridən Bankın kartın əldə edilmə tarixinə olan cari xidmət tarifləri və şərtləri ilə müəyyən edilən xidmət haqqının ödənilməsi tələb edilə bilər.

6.13. Müştəri kredit xətti üzrə ödənişlərini vaxtında və lazımınca icra etmədikdə, eləcə də Bank qarşısında olan kredit öhdəliklərinin icrasını ümumilikdə 20 (iyirmi) gündən artıq gecikdirdikdə, habelə Şərtlərin ümumi hissəsinin 5.13-cü bəndində göstərilən digər hallarda Bank Müştəriyə ayrılmış kredit xətti məbləğindən istifadəni tam və ya qismən məhdudlaşdıra, həmçinin bununla əlaqədar olaraq, Müştəriyə verilmiş kartdan istifadənin

məhdudlaşdırılması ilə bağlı digər tədbirlər görə bilər. Həmin məhdudlaşdırmanın müddəti və məbləği Bank tərəfindən müəyyən edilir. Əgər Bank tərəfindən ayrı qayda müəyyən edilməmişdirsə, Müştərinin istənilən kredit müqaviləsi üzrə Bank qarşısında olan borc öhdəlikləri vaxtında icra edilmədikdə və gecikmə müddəti 90 (doxsan) gündən çox olduqda Müştərinin Bank tərəfindən məhdudlaşdırılmış kartdan istifadə imkanı gecikdirilən ödəniş icra edildiyi və ardıcıl olaraq ən azı son 3 (üç) ay ərzində ödənişlərdə gecikmə müşahidə edilmədiyi halda bərpa edilə bilər. Son 12 (on iki) ay ərzində kartdan istifadə imkanı Bank tərəfindən yuxarıda qeyd olunan əsaslar üzrə 10 (on) dəfədən artıq məhdudlaşdırıldıqda (kart müvəqqəti blok edildikdə), Bank kartdan istifadəni birdəfəlik dayandıra bilər.

Məsuliyyət:

6.14. Müştəri Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə, ödənilməmiş əsas borc qalığı məbləğinə 180 (bir yüz səksən) gün müddətində, Müqavilə ilə təyin edilən illik faiz dərəcəsinə 5 (beş) faiz bəndi əlavə edilməklə hesablanan gecikdirilmə faizlərini Banka ödəyir. Bu bənddə müəyyən edilən həddə gecikdirilmə faizləri tətbiq edildikdə, Müştəridən əlavə dəbbə pulu (cərimə, penya) və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz. Əgər Banka dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, Bank Müştəridən həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

6.15. Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə Bank tərəfindən qanunvericiliyin tələbləri nəzərə alınmaqla cərimə tətbiq edilərsə, Müştəri Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə, Kredit sazişində razılaşdırılmış ödəniş aralığının sonuncu günündən sonrakı gündən başlayan 90 (doxsan) günlük müddət ərzində, ödənişin hər gecikdirildiyi gün üçün gecikdirilmiş əsas borc məbləğinin 1 (bir) faizi həddində, kreditin valyutasından asılı olaraq 0,50 manatdan/ABŞ dollarından/Avrodan az olmamaq şərtilə Banka cərimə ödəyir.

Təminat:

6.16. Müqavilə üzrə öhdəliklərin təminatı qismində Müştərinin Banka təqdim etdiyi, qiyməti və rekvizitləri Kredit sazişində göstərilən qızıl-zinət əşyaları çıxış edir. Bankın mülahizəsinə əsasən, Müqavilə üzrə öhdəliklərin təminatı qismində qızıl-zinət əşyalarından əlavə, digər təminat növləri də cəlb oluna bilər.

6.17. Bank tərəfindən tələb olunduqda, Müştəri Müqavilə üzrə öhdəliklərin təminatı kimi çıxış edən qızıl-zinət əşyalarının Bankın müəyyən etdiyi və ya Bankla razılaşdırılmış qiymətləndirici tərəfindən qiymətləndirilməsini, həmçinin həmin əşyalar üzərində Bankın girov hüququnun (yüklülüyün) qanunvericiliyə uyğun olaraq daşınar əmlakın yüklülüyünün dövlət reyestrində qeydə alınmasını təmin edir və bununla bağlı xərcləri qarşılayır.

"DOSTLAR KLUBU"NUN ÜZVLƏRİ İLƏ ƏQDLƏRİN BAĞLANMASI ÜZRƏ XÜSUSİ ŞƏRTLƏR

Bank, göstərdiyi xidmətlərdən müştəriləri tərəfindən daha rahat və surətli istifadə edilməsi, bununla da müştəri məmnuniyyətinin artırılması məqsədi ilə "Dostlar klubu"na üzv olan müştərilərinə aşağıda qeyd edilmiş şərtlər daxilində bank məhsullarından istifadə etmək imkanını yaradır.

"Dostlar klubu"na üzv olan müştərilər Bankın təqdim edəcəyi məhsullar üzrə kağız daşıyıcısında, internet, SMS və ya təklif edilən digər vasitələrdən istifadə etməklə bağlayacağı əqdləri təsdiqləməklə həmin məhsullardan istifadə edə bilərlər.

Bağlanacaq əqdlər üzrə tərəflərin hüquq və vəzifələri, əqdlərin bağlanması və məhsullardan istifadə edilməsi üzrə şərtlər aşağıdakı qaydada müəyyən edilir.

Şərtlərin bu bölməsi "Dostlar klubu" üzvlərinə münasibətdə hüquqi qüvvəyə malikdir. "Dostlar klubu" üzvlüyünün şərtləri Bank tərəfindən müəyyən edilir və kluba üzvlük Müştərilərə müvafiq "Dostlar klubu" kartının təqdim edilməsi yolu ilə təsdiq edilir.

Predmet:

1.1. Bank "Dostlar klubu" üzvlərinə kreditlərin təqdim edilməsi, kredit xətlərinin ayrılması, hesabların açılması və digər bank xidmətlərinin təqdim edilməsini təklif edir, Müştəri isə müvafiq əqdləri Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalamaqla həmin məhsulları əldə edir və razılaşdırılmış şərtlərə uyğun olaraq Bank qarşısında öhdəliklərini icra edir.

1.2. Tərəflər arasında əqdlər Bankın təklifi (oferta), Müştərinin isə həmin əqdləri imzalaması və ya digər formada təsdiqləməsi (aksepti) yolu ilə bağlanır. Əqdlər kağız daşıyıcısında, internet, SMS və ya təklif edilən digər vasitələrdən istifadə edilməklə bağlana bilər.

1.3. Müştəri Kredit sazişini/Sazişi Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalamaqla təsdiq edir ki, gələcəkdə aralarında bağlanacaq əqd(lər)in məzmunu ilə müvafiq qaydada tanış olacaq və həmin əqd(lər)i təqdim olunan üsulla bağlamağa razılığını bildirəcək. Müştəri bu razılığını bildirməklə həm də gələcəkdə həmin əqd(lər)in bağlanması zərurətinin mövcudluğu faktını qəbul etmiş hesab olunur.

1.4. "Dostlar klubu" üzvlərinə Bank tərəfindən gələcək əməliyyatların aparılması üçün plastik kart təqdim edilir. Müştəri ilə Bank arasında gələcəkdə

aparılacaq əməliyyatlar, veriləcək kreditlər, açılacaq hesablar və digər əməliyyatlar həmin kart vasitəsi ilə aparılacaq.

1.5. Bağlanacaq əqdlər üzrə Bank Müştəriyə müəyyən edilmiş xidmətləri göstərməyi, Müştəri isə həmin xidmətlərin haqqını, kreditlər üçün nəzərdə tutulmuş faizləri və digər ödənişləri icra etməyi öhdəsinə götürür.

1.6. Kartın verilməsi və istifadə şərtləri, bank hesablarının açılması və fəaliyyəti rejimi, kreditlərin istifadə edilməsi və ödənilməsi qaydası, tərəflərin hüquq və vəzifələri, təminat şərtləri, tərəflərin məsuliyyətinin ümumi əsasları və digər şərtlər Xidmət şərtlərinin ümumi hissəsində qeyd edilir.

Əqdlərin bağlanması:

1.7. Kağız daşıyıcıda əqdlər Müştəri və Bank tərəfindən imzalanmaqla bağlanır.

1.8. Əqdlərin Bankın internet (mobil) bankçılıq xidməti vasitəsi ilə bağlanması aşağıdakı qaydada həyata keçirilir:

a) Müştəri Bankın müvafiq xidməti vasitəsi ilə təklif etdiyi məhsullardan hər hansı birini (və ya bir neçəsini) seçərək sifariş üçün müvafiq düyməni basır;
b) yeni açılacaq bölmədə Müştəri ona məxsus eyniləşdirmə nömrəsini qeyd edərək öz səhifəsinə daxil olur;
c) daxil olduqdan sonra konkret məhsulun sifariş edilməsi üçün təqdim edilmiş elektron əqdlə tanış olur;
ç) Müştəri əqdin şərtləri ilə razılıq niyyətini müvafiq düyməni basmaqla bildirdikdən sonra seçimi ilə mobil telefon nömrəsinə (SMS-lə) müvafiq təsdiqedici şifrə göndərilir;
d) Müştəri ona göndərilmiş şifrəni müvafiq xanaya daxil edərək elektron əqdin şərtləri ilə razı olduğunu və onu bağladığını təsdiq edir;
e) Bank Müştərinin sifarişinə baxaraq ona sifariş edilmiş məhsulun təqdim edilib-edilməyəcəyi barədə qərar qəbul edir;
ə) müsbət qərar qəbul edildikdə, Müştərinin sifarişi elektron əqddə qeyd edilən müddətlərdə və qaydada icra edilir.

1.9. Məhsulun xüsusiyyətlərindən asılı olaraq əlavə bir neçə texniki addımın atılması və ya fərqli addımların atılması tələb oluna və ya göstərilmiş addımlardan biri və ya bir neçəsi tətbiq edilməyə bilər.

1.10. Tərəflər arasında əqdlərin digər vasitələrlə bağlanması şərtləri də müəyyən edilə bilər. Hər bir alternativ vasitə barədə məlumatlar kağız daşıyıcısında, Bankın internet saytında və ya həmin əqdin özündə əks etdiriləcək. Müştəri Bankın təklif etdiyi alternativ üsullarla əqdləri bağlamaqla həmin əqdlərlə və onların təsdiqləmə forması ilə razı olduğunu qəbul etmiş olur.

1.11. Əqd bağlandıqdan sonra Tərəflər əqdin predmetinə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri icra etməyə başlayırlar.

1.12. Əgər əqddə ayrı qayda nəzərdə tutulmayıbsa, Bank sifariş olunan məhsul üzrə nəzərdə tutulmuş komisyon haqlarını Müştəriyə ayrılacaq məbləğ(lər)dən tutur.

1.13. Müştəri əqdlərin bağlanması zamanı onun eyniləşdirilməsi və gələcəkdə məlumat mübadiləsinin həyata keçirilməsi üçün istifadə ediləcək özünə məxsus məlumatları Kredit sazişini/Sazişi Şərtlərə uyğun olaraq razılaşdırılan formada imzalamaqla Banka təqdim edir.

Kredit məhsulları:

2.1. Kredit xətti:

2.1.1. Bank "Dostlar klubu" üzvlərinə məbləği (maksimal və ilkin istifadə), müddəti, istifadə şərtləri və digər zəruri şərtləri müvafiq Sazişdə göstərilən kredit xətti açır, Müştəri isə kredit xəttindən razılaşdırılmış şərtlər daxilində istifadə edir və Banka bunun müqabilində komisyon haqlar ödəməyi öhdəsinə götürür.

2.1.2. Kredit xəttindən ilkin olaraq istifadə edilməsi mümkün olan məbləğ və həmin məbləğin artırılması Bankla Müştəri arasında yazılı, elektron əqd, bankomat, SMS və ya digər vasitələrlə razılaşdırıla bilər.

2.1.3. Kredit vəsaitindən istifadəyə görə komisyon haqların həcmi Bankın xidmət tarifləri və şərtləri ilə müəyyən edilir. Bu barədə ətraflı məlumat www.bankofbaku.com internet saytında yerləşdirilir və/və ya digər formada Müştəriyə çatdırılır. Müştəri kredit vəsaitindən istifadə etməklə, Bankın müvafiq komisyon haqları ilə tanış olduğunu təsdiq edir və aparılan əməliyyatlara görə tətbiq edilən komisyon haqlar üzrə Bank qarşısında öhdəlik daşıdığını qəbul edir.

2.1.4. Müqavilə üzrə istifadə edilmiş məbləğ kredit müddətində tamamən qaytarılmalıdır. Kartın rəsmiləşdirilməsi tarixindən asılı olmayaraq, Müştəri istifadə etdiyi məbləğ üzrə hesablanmış komissiya haqqını və əsas borcun (istifadə etdiyi məbləğin) həmin komissiya haqqı həcmində olan hissəsini hər növbəti ayın ilk 10 (on) günü ərzində Banka qaytarmalıdır. Həmin müddət ərzində hesablanmış komissiya haqqı tam ödənildikdə, əsas borcun tələb olunan hissəsi üçün növbəti ödəniş aralığının son gününədək güzəşt müəyyən olunur. Komissiya haqqının aylıq ödənişi qeyd olunan qaydada davam etdiyi təqdirdə əsas borc üzrə güzəşt kredit müddətinin sonunadək davam edir. İstifadə edilmiş məbləğ(lər) növbəti təqvim ayının ilk 10 günü ərzində (və ya razılaşdırılmış digər müddət ərzində) tam ödənilmədikdə, təqvim ayının 11-ci günündən etibarən hər növbəti təqvim ayının 10-dək (ayın 10-u daxil olmaqla) geri ödənilməmiş məbləğin qalıq hissəsinə, əgər Tərəflər arasında Kredit sazişində

ayrı şərt razılaşdırılmamışdırsa, Bankın xidmət tarifləri və şərtləri ilə müəyyən edilmiş komisyon haqq hesablanmağa davam edir. Komisyon haqqın hesablanması ümumi borc məbləği tam ödənilənədək aparılır.

2.1.5. Aylıq hesablanmış komisyon haqlar vaxtında ödənildikdə, lakin istifadə edilmiş məbləğ qaytarılmadıqda komisyon haqqın hesablanması ən geci Sazişin "Kredit xəttinin maksimal müddəti" bölməsində göstərilən tarixədək aparılır və bu müddətin sonunda ödənilməmiş borc məbləği Banka tam qaytarılmalıdır.

2.1.6. Müştəri tərəfindən Bank qarşısında olan kredit öhdəlikləri icra edilmədikdə, Bank Şərtlərin Ümumi hissəsinin 5.14-cü bəndində göstərilən qaydada Müştərinin kartını bloklaşdıra, həmin kartdan istifadə imkanını birdəfəlik dayandıra və ya məhdudlaşdıra bilər. Kartdan istifadə imkanının bərpa edilməsi (kartın blokdan çıxarılması) həmin bəndə əsasən tənzimlənir. Bank tərəfindən qeyd edilən qaydadan fərqli qayda müəyyən edilə bilər. Bu halda tətbiq ediləcək yeni qayda barədə məlumat Bankın xidmət tarifləri və şərtlərində, www.bankofbaku.com internet saytında yerləşdirilir və/və ya digər formada Müştəriyə çatdırılır.

2.1.7. İstifadə edilən kredit məbləği, onun ödənilmə şərtləri və müddətləri, habelə Sazişdə göstərilən kredit məbləğlərindən və Bankın xidmət tarifləri və şərtləri ilə müəyyən edilən komisyon haqlardan fərqli məbləğ və haqların müəyyənləşdirilməsi Bankla Müştəri arasında bankomat, SMS, elektron əqd və ya digər vasitələrlə razılaşdırıla bilər.

2.1.8. Kredit müddətinin axımı, kreditin Müştərinin cari hesabına köçürüldüyü təqvim tarixindən (bundan sonra "Kreditin verilmə tarixi") başlanır və müddətin sonuncu günü qurtarır.

Məsuliyyət:

2.1.9. Müştəri Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə ödənilməmiş əsas borc qalığı məbləğinə 180 (bir yüz səksən) gün müddətində, illik faiz dərəcəsinə 5 faiz bəndi əlavə edilməklə, hesablanan gecikdirilmə faizlərini Banka ödəyir. Bu bənddə müəyyən edilən həddə gecikdirilmə faizləri tətbiq edildikdə, müştəridən əlavə dəbbə pulu (cərimə, penya) və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz. Əgər Banka dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, Bank Müştəridən həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

2.1.10. Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə Bank tərəfindən qanunvericiliyin tələbləri nəzərə alınmaqla, cərimə tətbiq edilərsə, Müştəri hər təqvim ayının 11-dən başlayaraq növbəti 80 (səksən) gün ərzində aylıq tələb olunan əsas borcun (bir) faizi məbləğində, kreditin valyutasından asılı olaraq 0,50 manatdan/ABŞ dollarından/Avrodan az olmamaq şərtilə Banka cərimə ödəyir.

2.2. Nağd kredit:

2.2.1. Bank "Dostlar klubu" üzvlərinə maksimal məbləği, müddəti, istifadə şərtləri və digər zəruri şərtləri müvafiq Sazişdə göstərilən nağd pul krediti üzrə limit ayırır, Müştəri isə kredit limiti üzrə tranşları razılaşdırılmış şərtlər daxilində müvafiq əqdlər bağlamaqla sifariş edir və ayrılmış tranşları razılaşdırılmış şərtlər daxilində Banka ödəməyi öhdəsinə götürür.

2.2.2. Tranşların şərtləri, müddəti, illik faiz dərəcəsi və məbləği, valyutası Müştərinin tranş üçün müraciəti zamanı Bank tərəfindən qüvvədə olan xidmət tarifləri və şərtlərinə əsasən müəyyən edilir.

2.2.3. Kredit müddətinin axımı, kreditin Müştərinin kart hesabına köçürüldüyü təqvim tarixindən (bundan sonra "Kreditin verilmə tarixi") başlanır və müddətin sonuncu günü qurtarır.

2.2.4. Faizlər kreditin verilmə tarixindən etibarən kredit tam qaytarılan günədək Müştərinin adına açılmış cari hesab üzrə borc məbləğinə gündəlik olaraq hesablanır.

2.2.5. Bank Azərbaycan Respublikasının qanunvericiliyi, bank tənzimləyicisinin aktları və bankdaxili müvafiq korporativ aktlar ilə müəyyən olunan qaydada kreditin istifadə edilməsi və ödənilməsi üçün Müştərinin adına cari hesab(lar) açır. Kreditin istifadə edilməsi və ödənilməsi, Müştərinin adına yeni cari hesab açılmadan, onun Bankda olan mövcud cari hesabı vasitəsilə də aparıla bilər. Bank tərəfindən ayrı qayda nəzərdə tutulmamışdırsa, müştərinin hesabında olan qeyri-kredit pul vəsaitinə faizlər hesablanmır.

Məsuliyyət:

2.2.6. Müştəri Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə ödənilməmiş əsas borc qalığı məbləğinə 180 (bir yüz səksən) gün müddətində, illik faiz dərəcəsinə 5 faiz bəndi əlavə edilməklə, hesablanan gecikdirilmə faizlərini Banka ödəyir. Bu bənddə müəyyən edilən həddə gecikdirilmə faizləri tətbiq edildikdə, müştəridən əlavə dəbbə pulu (cərimə, penya) və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz. Əgər Banka dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, Bank Müştəridən həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

2.2.7. Müqavilə üzrə ödəniş öhdəliklərinin vaxtında icra edilməməsinə görə Bank tərəfindən qanunvericiliyin tələbləri nəzərə alınmaqla cərimə tətbiq edilərsə, ödənişin gecikdirildiyi 2-ci gündən sonra növbəti 88 (səksən səkkiz) gün ərzində gecikdirilmiş kreditə görə, Müştəri, hər gecikdirilən gün üçün gecikdirilmiş kreditin (əsas borc məbləğinin) 1 (bir) faizi miqdarında (kreditin valyutasından asılı

olaraq 0,50 manatdan/ABŞ dollarından/Avrodan az olmamaq şərtilə) cərimə ödəyir.

3. Digər məhsullar:

3.1. Digər məhsullardan istifadə edilməsi qaydası və həmin məhsullar üzrə tərəflərin hüquq və vəzifələri Şərtlərə uyğun olaraq razılaşdırılan formada ayrıca Sazişin imzalanması və/və ya müvafiq münasibətlərin tənzimlənməsinə dair əqdlərin bağlanması yolu ilə müəyyən olunur.

4. Məhsullardan istifadə qaydası:

4.1. Razılaşdırılmış məhsulları Müştəri, Banka müəyyən edilmiş vasitələrlə və qaydada müraciət etməklə, əldə edə bilər. Sifariş üçün vasitə kimi həm Müştərinin Banka fiziki olaraq müraciəti, həmçinin qısa mesaj (SMS) vasitəsi ilə müəyyən müraciəti başa düşülür. Müştəri Bankın təqdim etdiyi internet bankçılıq xidmətinə qoşulacağı halda təklif edilən məhsulları həmçinin internet vasitəsi ilə də əldə edə bilər.

4.2. Bank Müştərinin konkret sifarişini aldıqdan sonra onun icrasının mümkünlüyünü özünün bankdaxili müvafiq korporativ aktlarına əsasən müəyyənləşdirir və sifarişin icrası mümkün olduqda bu barədə Müştəriyə məlumat verir. Sifarişin icrası həmin şərtlərlə mümkün olmadıqda Bank Müştəriyə icrası mümkün olan şərtlər barədə məlumat verir. Həmin şərtlər Müştərini qane etdikdə, o, sifarişini həmin qaydada bir daha Banka təqdim edir və Bank sonuncu sifarişə əsasən nəzərdə tutulan xidməti Müştəriyə təqdim edir.

4.3. SMS vasitəsi ilə kredit məbləğinin kart hesabına köçürülməsi aşağıdakı qaydada həyata keçirilir:

a) Müştəri Bankın təklif etdiyi məhsullardan hər hansı birini (və ya bir neçəsini) seçərək, Bank tərəfindən müəyyən edilmiş formada hansı məbləğdə və şərtlərlə kredit almaq istəyini və özünün Sazişdə qeyd olunan eyniləşdirmə nömrəsini, Bank tərəfindən təyin olunan qısa SMS nömrəsinə göndərir;
b) cavab SMS-də Bank tərəfindən Müştəriyə hansı məbləğdə və şərtlərlə kredit verilə biləcəyi barədə məlumat göndərilir;
c) Müştəri Bank tərəfindən təklif olunan kredit məbləği və şərtləri ilə razılaşdığı halda müvafiq nömrəyə razılıq SMS-i göndərir. Bundan sonra Bank tərəfindən müştərinin kart hesabına razılaşdırılmış məbləğdə və şərtlər çərçivəsində vəsait köçürülür;
ç) Bank Müştəriyə göndərilən SMS-lərin dəyərinin Müştəri tərəfindən ödənilməsini tələb edə bilər.

Qeyd: Məhsulun xüsusiyyətlərindən asılı olaraq əlavə bir neçə texniki addımın atılması və ya fərqli addımların atılması tələb oluna və ya göstərilmiş addımlardan biri və ya bir neçəsi tətbiq edilməyə bilər.

4.4. Müştəriyə verilmiş kreditlər üzrə ödənişlərin aparılma qaydası Bank tərəfindən Müştəriyə mobil telefon nömrəsinə qısa mesaj (SMS) vasitəsi ilə çatdırılacaq. Müştərinin istəyinə əsasən Bank tərəfindən ona ödəniş cədvəli kağız daşıyıcısında və ya digər davamlı daşıyıcıda təqdim edilir.

4.5. Müştəri Razılaşma üzrə sifariş etdiyi məhsulları əvvəlcədən razılaşdırılmış limitlər (məbləğ, müddət, faiz dərəcəsi və s.) çərçivəsində sifariş edə bilər. Sifariş edilmiş məhsullar üzrə öhdəliklər Müştəri tərəfindən Xidmət şərtləri, xüsusilə "Dostlar klubu" üzvləri ilə əqdlərin bağlanmasi üzrə xüsusi şərtlər və müvafiq Saziş üzrə icra edilir.

5. Digər:

5.1. Müştəri özünə məxsus eyniləşdirmə nömrəsinin, habelə Müqavilə çərçivəsində məxfiliyi təmin edilməli olan məlumatların məxfi saxlanması üçün cavabdehdir. Bank Müştəriyə məxsus eyniləşdirmə nömrəsi vasitəsi ilə daxil olmuş sifarişləri hər bir halda Müştəri tərəfindən edilmiş kimi qəbul və icra edir.

5.2. Bağlanan əqdlər üzrə Tərəflərin hüquq və vəzifələri, təminat şərtləri, məsuliyyətin ümumi əsasları və bütün digər şərtlər, əgər Tərəflər arasında müvafiq sazişlə ayrı qayda müəyyən edilməmişdirsə, bu Şərtlərin Ümumi hissəsi ilə tənzimlənir.

5.3. Müştəri Bank qarşısında olan öhdəliklərini icra etmədikdə və ya lazımınca icra etmədikdə Bank birtərəfli qaydada Müştərinin "Dostlar klubu" üzvlüyünə xitam verə və ya klub üzvləri üçün nəzərdə tutulan imtiyazlardan istifadəni məhdudlaşdıra bilər. Müştərinin müvafiq üzvlüyünə xitam verilməsi Bankla onun arasında "Dostlar klubu" əməkdaşlığı çərçivəsində imzalanmış Saziş və əqdlərin xitamı üçün əsasdır. Əqdlərə xitam verilməsi tərəfləri xitam tarixinədək üzərlərinə götürdükləri və icra edilməmiş öhdəliklərin icrasından azad etmir.

İNTERNET BANKÇILIQ ÜZRƏ ƏMƏKDAŞLIQ ŞƏRTLƏRİ

1. Bank göstərdiyi xidmətlərin keyfiyyətinin və müştəri məmnuniyyətinin artırılması məqsədilə, müştərilərinə təklif etdiyi xidmətlərin bir qisminin internet vasitəsi ilə təqdim olunmasını təmin edir və həmin xidmətlərin çeşidini mütəmadi olaraq artırır. İnternet bankçılıq Bank tərəfindən göstərilən xidmətlərin operativliyinin artmasına və müştərilərin həmin xidmətlərdən daha rahat istifadəsinə səbəb olur.

2. Müştəri internet bankçılıq xidmətinə qoşulmaqla Bankda olan bank hesabları və s. barədə müvafiq məlumatlarına internet vasitəsilə çıxış əldə edir.

3. Müştəri Bankın internet bankçılıq xidmətindən istifadə etmək üçün Bankın müəyyən etdiyi formada qeydiyyatdan keçməklə istifadəçi adını və şifrəni əldə etməlidir.

4. Müqaviləni bağlayarkən Müştəri özünə məxsus eyniləşdirmə məlumatlarını (mobil telefon nömrəsi, e-mail və s.) Banka təqdim edir. Həmin məlumatlar Müştəri tərəfindən yalnız Sazişlə müəyyən olunan qaydada dəyişdirilə bilər. Müştərinin təqdim etdiyi eyniləşdirmə məlumatları onunla Bank arasında internet bankçılıq çərçivəsində aparılacaq əməliyyatlar zamanı Bank tərəfindən Müştərinin eyniləşdirilməsi və bu əməliyyatların təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə istifadə ediləcək.
5. Müştəri internet bankçılıq xidmətinə qoşulduqdan sonra özünün internet bankçılıq səhifəsinə (o cümlədən, Bankın mobil tətbiqinə) daxil olmaqla, Bankın internet vasitəsi ilə təklif etdiyi xidmətlərdən istifadə etmək imkanı əldə etmiş olacaq.
6. Müştəri internet bankçılıq səhifəsinə (o cümlədən, Bankın mobil tətbiqinə) daxil olmaqla Bank tərəfindən təklif edilən əməliyyatları icra edə bilər. Müştəri həmin səhifədə (o cümlədən, Bankın mobil tətbiqində) göstərilən texniki addımları icra etməklə həmin şərtlərlə razı olduğunu qəbul etmiş olur.
7. Hər hansı əməliyyatın aparılması üçün Müştəridən ona verilmiş daimi şifrədən istifadə etmək və ya birdəfəlik şifrəni əldə etməklə əməliyyatın aparılması tələb oluna bilər. Birdəfəlik şifrənin və sistemdə aparılan digər əməliyyatların təsdiqinin göndərilməsi üçün Müştərinin internet bankçılığa qoşulması zamanı qeydə alınan və ya sonradan Banka Sazişlə müəyyən olunan qaydada təqdim edilən mobil telefon nömrəsi istifadə olunur.
8. Müştəri razılaşır ki, daimi və birdəfəlik şifrələr onun şəxsi imzasının analoqu qismində çıxış edir və həmin şifrələr istifadə edilməklə təsdiqlənən əqdlər kağız daşıyıcılarda təsdiq edilən əqdlərə bərabər tutulur və məhkəmədə sübut kimi çıxış edə bilər.
9. Müştəri internet bankçlıq vasitəsi ilə bank hesabları barədə məlumat əldə etmək, onlayn ödənişlər, kartdan karta köçürmələr etmək, kartını bloklaşdırmaq, kommunal xidmətlərin avtomatik ödənişini həyata keçirmək, kredit ödənişlərini etmək, əmanət məbləğlərini artırmaq və Bankın təqdim etdiyi digər xidmətlərdən istifadə etmək imkanı əldə etmiş olacaq.
10. Müştərinin internet bankçılıq xidməti vasitəsilə apardığı bütün əməliyyatlar bağlanmış əqd qüvvəsinə malik olacaq.
11. Müştəri aparılan əməliyyatlar üzrə Bankın xidmət tarifləri və şərtləri ilə müəyyən edilən xidmət haqlarını ödəməlidir. Bank Müştəri tərəfindən ödənilməli olan xidmət haqlarını, xidmət üzrə tarifləri öz internet səhifəsinin (www.bankofbaku.com və/və ya digər rəsmi internet saytının) müvafiq bölməsində Müştəriyə təqdim etməklə, Müştərinin Bankdakı hesablarında olan vəsaitlərdən birtərəfli qaydada tuta bilər. Müştəri müvafiq əməliyyatları icra etməklə həmin tariflərlə razı olduğunu və xidmət haqlarının onun bank hesabından tutulmasına razı olduğunu ifadə etmiş olur.
12. Bank əməliyyatların aparılması üzrə öz internet səhifəsində (www.bankofbaku.com və/və ya digər rəsmi internet saytında), o cümlədən mobil tətbiqində göstərilən prosedurları Müştərinin eyniləşdirilməsi və əməliyyatların təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə mütəmadi olaraq təkmilləşdirə bilər.
13. Müştəri internet bankçılıq xidməti vasitəsilə aparılan əməliyyatların təhlükəsizliyinin təmini baxımından, öz istifadəçi adı və şifrəsindən kənar şəxslərin istifadəsinin qarşısının alınması və ona məxsus məlumatların üçüncü şəxslərə ötürülməməsi üçün tədbirlər görməlidir.
14. Müştərinin internet bankçılıq sistemi (o cümlədən, Bankın mobil tətbiqi) vasitəsilə bağladığı əqdlər üzrə şərtlər Bankın internet səhifəsinin (www.bankofbaku.com və/və ya digər rəsmi internet saytının) müvafiq bölməsində, yaxud mobil tətbiqində Müştərinin tanışlığı üçün yerləşdirilə bilər. Şərtlər təqdim edilmədiyi halda Tərəflər arasında münasibətlər bu Şərtlərdə həmin münasibət (kredit, hesabın açılması və s.) üzrə müəyyən edilmiş müddəalara əsasən tənzimlənəcək.

Bankın hüquq və vəzifələri:
15. Müştəri öhdəliklərini icra etmədikdə və ya lazımınca icra etmədikdə, xidmətlərin göstərilməsini birtərəfli qaydada dayandırır;
16. Bank göstərilən internet bankçılıq xidməti müqabilində Müştərinin bank hesablarından Bankın xidmət tarifləri və şərtləri ilə müəyyən edilmiş həcmdə illik xidmət haqqı tuta bilər;
17. Müştərinin bank hesablarından özünün xidmət haqlarını silir (bu müddəa Müştərinin qabaqcadan aksepti faktını təsdiq edir);
18. Müştərinin bank hesablarında kifayət qədər vəsait olmadıqda, sifariş müəyyən edilmiş formada verilmədikdə və/və ya düzgün rekvizitlər göstərilmədikdə, Müştərinin sərəncamlarının icrasından imtina edir;
19. Müştərinin məlumatları bir neçə dəfə səhv daxil edildikdə və əməliyyatın təhlükəsizliyi üçün digər əsaslar yarandıqda, Müştərinin istifadəçi adını bloklaşdırır və/və ya əməliyyatların aparılmasını dayandırır;
20. Xidmətlərin aparılması üzrə limitlər müəyyən edir və əməliyyatların risklilik dərəcəsinin aşağı salınması üzrə digər tədbirlər görür;
21. Bank xidmətlərinin tariflərini və şərtlərini müəyyən edir və birtərəfli qaydada dəyişdirir;
22. Müəyyən edilmiş formalara riayət etmiş Müştərinin sistemdə qeydiyyatını keçirir, daimi və müvəqqəti şifrələrin təqdim edilməsini təmin edir;
23. Müştəri tərəfindən müəyyən edilmiş formada verilmiş və Müştərinin şifrələri ilə təsdiq edilmiş elektron sərəncamları icra edir;

24. Qanunvericiliklə müəyyən edilən hallar istisna olmaqla, Müştərinin əməliyyatlarının sirrinə təminat verir;
25. Texniki səbəblərdən internet bankçılıq xidmətlərinin göstərilməsi mümkün olmadıqda, internet səhifəsində (www.bankofbaku.com və/və ya digər rəsmi internet saytı), mobil tətbiqində və ya digər məlumat daşıyıcılarında bu barədə məlumat yerləşdirir.

Müştərinin hüquq və vəzifələri:
26. Bank tərəfindən təklif edilən elektron bankçılıq xidmətlərindən istifadə edir;
27. Bankın xidmət tarifləri və şərtləri ilə müəyyən olunan xidmət haqlarını ödəyir;
28. Özünün eyniləşdirmə məlumatlarını, daimi və birdəfəlik şifrələrini təhlükəsiz və üçüncü şəxslər üçün əlçatmaz formada saxlayır;
29. Şifrələrin təhlükəsizliyi ilə bağlı şübhələri yarandıqda onların dəyişdirilməsi ilə bağlı lazımi tədbirlər görür;
30. Şifrənin dəyişdirilməsi mümkün olmadıqda, dərhal Bankın filiallarına və ya məlumat mərkəzinə müraciət edir;
31. İnternet bankçılıq xidməti vasitəsilə əməliyyatların aparılması üçün birdən artıq şəxsin təsdiqi tələb edildiyi halda, bütün şəxslərin təsdiqinin mövcudluğunu təmin edir.

Məsuliyyət:
32. Bank aşağıdakı hallara görə məsuliyyət daşımır:
- Xidmətlərin göstərilməsi Bankdan asılı olmayan səbəblərdən mümkün olmadıqda, həmçinin Banka xidmət göstərən üçüncü şəxslər tərəfindən xidmətlər lazımi səviyyədə göstərilmədikdə;
- Müştərinin istifadəçi adı və şifrələrinin kənar şəxslər tərəfindən istifadə edilməsi nəticəsində Müştəriyə zərər dəydikdə;
- Müştəri tərəfindən internet bankçılıq vasitəsi ilə səhv və ya əsassız köçürmə edildikdə. Bu halda həmin vəsaitlərin geri qaytarılması ilə bağlı məsələləri Müştəri özü tənzimləyir.